

**Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...**

*Ümummilli Lider HEYDƏR ƏLİYEV*

Qəzet 1929-cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti

30 yanvar 2026-cı il

# BAKI UNİVERSİTETİ

**MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR**


**20 Yanvar faciəsinə həsr olunmuş sərgi** → Səh.5

**BDU-da "Heydər Əliyev mühazirələri" çərçivəsində Milli Məclisin üzvü Samir Vəliyevlə görüş** → Səh.5

**BDU-da qış imtahan sessiyasında 22 minə yaxın tələbə iştirak edir** → Səh.6

**Ziyalı qadınların tarixi yaddaşı, humanist mövqeyi və gələcəyə çağırışı** → Səh.7

**BDU 2025-ci ildə beynəlxalq akademik və elmi əməkdaşlıq sahələrində mövqelərini gücləndirib** → Səh.8

**BDU-da "Güclü dövlətin təməli - Azərbaycan gəncliyi" adlı forum keçirilib** → Səh.9

**BDU-da gender bərabərliyinə həsr olunmuş elmi seminar** → Səh.9

**BDU "QS Avropa 2026" reytinqində mövqeyini gücləndirib** → Səh.11




**BDU-da audiovizual mediada Azərbaycan dilinin saflığının qorunmasına dair Respublika elmi-praktik konfransı keçirilib**

→ Səh.2



**Özbəkistanın Çirçik Dövlət Pedaqoji Universitetinin nümayəndə heyəti BDU-da**

→ Səh.3



**BDU-da Özbəkistanın Jurnalistika və Kütləvi Kommunikasiya Universitetinin nümayəndə heyəti ilə görüş**

→ Səh.3



**BDU-da AZƏRTAC-ın xüsusi auditoriyası açılıb**

→ Səh.4



**BDU-da "Pakistan otağı" açılıb**

→ Səh.4



## BDU-da 20 Yanvar faciəsinin 36-cı ildönümü qeyd olunub

***Yanvarın 19-da Bakı Dövlət Universitetində 20 Yanvar faciəsinin 36-cı ildönümünə həsr olunmuş anım tədbiri keçirilib.***

Əvvəlcə BDU kollektivi 2 saylı tədris binasının qarşısında şəhidlərin xatirəsinə ucaldılmış abidənin önünə əklil qoyub, gül dəstələri düzüb.

Tədbir BDU-nun akt zalında davam edib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

BDU-nun rektoru Elçin Babayev bildirib ki, 20 Yanvar xalqımızın yenilməz iradəsinin rəmzi, azadlıq və müstəqillik uğrunda apardığı mübarizənin ən ağrılı və şərəfli səhifələrindən biridir. Keçmiş sovet Ordusunun Azərbaycan xalqına qarşı həyata keçirdiyi bu hərbi təcavüz insanlıq əleyhinə törədilmiş ən ağır cinayətlərdən biri kimi bəşər tarixində qalmaqdadır. Bu faciəli hadisə Azərbaycan milli kimliyinin formalaşmasına həlledici təsir göstərib, dövlət müstəqilliyimizin bərpasında taleyüklü dönüş nöqtəsinə çevrilib. Məhz 20 Yanvar faciəsindən sonra milli azadlıq hərəkatı tam siyasi reallıq qazanaraq dönməz xarakter alıb, xalqımız öz gələcəyini yalnız müstəqil Azərbaycanda görüb: "1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet Ordusunun böyük hərbi qüvvə, xüsusi təyinatlı bölmələr və daxili qoşunlarla Bakıya yeridilməsi misli görünməmiş qəddarlıq və amansızlıqla müşayiət olunub. Sovet qoşun hissələri müxtəlif istiqamətlərdən barrikadaları dağıdaraq ağır texnika və müxtəlif tipli silahlardan əliyalın əhaliyə atəş açmaqla şəhərə daxil olub. Bakıda yanvarın 20-si saat 00:00-da fövqəladə vəziyyətin tətbiqi barədə imzalanmış fərman əhaliyə yalnız səhər saat 05:30-da radio vasitəsilə elan edilib. Fövqəladə vəziyyət əhaliyə elan olunana qədər 82 nəfər amansızcasına qətlə yetirilib, 20 nəfər ölümcül yaralanıb. Ümumilikdə isə 20 Yanvar hadisələri zamanı Azərbaycanın 150 nəfər vətəndaşı şəhidlik zirvəsinə ucalıb, 744 nəfər yaralanıb. Həlak olanlar arasında qadınlar, uşaqlar, qocalar, təcili tibbi yardım işçiləri və hüquq-mühafizə orqanlarının əməkdaşları da olub. Olduqca mürəkkəb və gərgin siyasi şəraitdə xalqımızın Ümummilli Lideri Heydər Əliyev böyük siyasi iradə və cəsarət nümayiş etdirərək, Moskvadakı Azərbaycan nümayəndəliyinə gəlib, SSRİ rəhbərliyinin törətdiyi bu qanlı cinayəti açıq və prinsipial şəkildə pisləyib. Sonradan onun təşəbbüsü ilə 1994-cü ilin yanvarında Milli Məclis səviyyəsində 20 Yanvar faciəsinə rəsmi hüquqi-siyasi qiymət verilib".

Rektor bildirib ki, 20 Yanvar faciəsi Azərbaycan elminin və təhsilinin beşiyi olan Bakı Dövlət Universitetinin tarixində də dərin iz buraxıb. Həmin qanlı gecədə xalqımızın azadlığı uğrunda mübarizənin ön sıralarında BDU-nun tələbə və məzunları da fəal iştirak ediblər. Onlar Vətənin taleyinin həll olunduğu məqamlarda yüksək vətəndaş mövqeyi, milli ləyaqət və vətənpərvərlik nümunəsi göstərib, bu yolda canlarından keçərək şəhidlik zirvəsinə yüksəliblər: "20 Yanvar şəhidləri sırasında olan BDU tələbə və məzunları Universitetimizin qürur mənbəyidir. Onların əziz xatirəsi bu gün də gənc nəslin vətənpərvərlik ruhunda formalaşmasında mühüm rol oynayır. Bu tarix yalnız kədər günü deyil, milli iradənin, birlik və həmrəyliyin təntənəsidir.

*(ardı 5-ci səhifədə)*

## BDU-nun "İlin gənc alimi" müsabiqəsinin nəticələri açıqlanıb

→ Səh.11

# BDU-da audiovizual mediada Azərbaycan dilinin saflığının qorunmasına dair Respublika elmi-praktik konfransı keçirilib

***Yanvarın 15-də BDU-da "Audiovizual mediada Azərbaycan dilinin saflığının qorunması yeni çağırışlar müstəvisində" mövzusunda Respublika elmi-praktik konfransı keçirilib.***

Konfransda çıxış edən BDU rektoru Elçin Babayev bildirib ki, Azərbaycan dili milli kimliyimizin, milli yaddaşımızın və mənəvi varlığımızın əsas sütunlarından biridir. Dövlət dili kimi Azərbaycan dilinin saflığının qorunması və inkişafı həm də ardıcıl və məqsədyönlü dövlət siyasətinin mühüm istiqamətlərindən biri kimi daim diqqət mərkəzindədir. Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu dövlət dili siyasəti müstəqillik illərində dövlətçilik ənənələrinin möhkəmləndirilməsi və inkişafına böyük töhfə verib. Ulu Öndərin təşəbbüsü ilə hazırlanmış və 1995-ci ildə qəbul edilmiş Konstitusiyamızın 21-ci maddəsində Azərbaycan dili müstəqil Azərbaycanın dövlət dili kimi təsbit olunub. O, ana dilinin inkişafı, işlənilməsi, saflığının qorunmasını, gənclərin ana dilinə həmişə bağlı olmasını dönə-dönə vurğulayıb, ədəbiyyat və mədəniyyət xadimləri ilə mütəmadi görüşlərində Azərbaycan dilinin zənginliyindən, onun saflığının qorunmasından bəhs edib.

Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev də Azərbaycanın mədəniyyəti, tarixi, milli-mənəvi dəyərləri, dil və ədəbiyyat məsələlərinə xüsusi həssaslıqla yanaşır. Dövlət dilinin tətbiqi, ondan istifadənin təmin olunması, sürətlə qloballaşan dünyada ana dilinin saflığının qorunması istiqamətində onlarla fərman və sərəncam imzalanıb. "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında", "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında", "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" fərman və sərəncamlar, eləcə də 2012-ci ildə qəbul edilmiş "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı" və s. kimi sənədlər ana dilimizin qorunması və inkişafı istiqamətində mühüm mərhələ olub. Bu rəsmi sənədlərin məzmunu və müəyyənləşdirdiyi strateji istiqamətlər açıq şəkildə göstərir ki, Azərbaycan dilinin saflığının qorunması dövlət siyasətinin prioritet istiqamətlərindən biridir.

> *"Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu dövlət dili siyasəti müstəqillik illərində dövlətçilik ənənələrinin möhkəmləndirilməsi və inkişafına böyük töhfə verib. Ulu Öndərin təşəbbüsü ilə hazırlanmış və 1995-ci ildə qəbul edilmiş Konstitusiyamızın 21-ci maddəsində Azərbaycan dili müstəqil Azərbaycanın dövlət dili kimi təsbit olunub".*






Rektor diqqətə çatdırıb ki, qloballaşma və sürətli elmi-texnoloji inkişaf şəraitində Azərbaycan dilinin zənginləşdirilməsi, tətbiq imkanlarının genişləndirilməsi və elmi əsaslarla qorunması xüsusilə əhəmiyyətlidir: "Azərbaycan dilinin saflığının qorunmasına daim həssaslıqla yanaşan Prezident İlham Əliyev həm AMEA-nın 80 illik yubileyinə həsr olunmuş mərasimdə çıxışında, həm də Azərbaycan televiziyalarına verdiyi müsahibədə bu mövzunun əhəmiyyətinə bir daha toxunaraq bizim hər birimizin məsuliyyətini qeyd etdi. Azərbaycan dilinin saflığının qorunması yalnız dövlətin deyil, bütövlükdə cəmiyyətin ümumi məsuliyyətidir. Müasir informasiya cəmiyyətində kütləvi informasiya vasitələri, xüsusilə audiovizual media Azərbaycan dilinin işləkliyinin genişləndirilməsində, yayılmasında və ictimai şüurda möhkəmlənməsində mühüm rol oynayır. Televiziya, radio və rəqəmsal platformalar cəmiyyətin geniş təbəqələrinə təsir göstərməklə yanaşı, dilin norma və qaydalarının gündəlik nitqə ötürülməsində əsas vasitələrdən birinə çevrilib. Bu baxımdan audiovizual mediada Azərbaycan dilinin ədəbi normalara uyğun, düzgün və səlis istifadəsi təkcə peşəkar məsuliyyət deyil, eyni zamanda ictimai və mədəni öhdəlikdir. Audiovizual media dil siyasətinin həyata keçirilməsində mühüm tərəfdaş kimi çıxış etməli, dilin normativliyinin qorunmasına və dil mədəniyyətinin yüksəldilməsinə töhfə verməlidir".

Rektor Elçin Babayev vurğulayıb ki, BDU ölkədə filologiya, Azərbaycan dili və ədəbiyyatını tədris edən ən böyük təhsil müəssisəsi, eləcə də audiovizual mediada çalışan mütəxəssisləri yetişdirən əsas elm və təhsil mərkəzidir: "Təhsil müəssisələrində təkcə ana dilimizin incəliklərini öyrətməyi deyil, həm də onun saflığının qorunması məsələsini diqqətdə saxlamalıyıq. Ana dilimizdə məzmun yaradan media orqanları ilə birgə işləməli, mövcud problemlərin həlli yollarını axtarmalıyıq. BDU-da artıq bu istiqamətdə uğurlar əldə etmişik. Jurnalistika fakültəsində media orqanları tədris prosesinə cəlb olunur, Mətbuat Şurasının, MEDİA Agentliyinin, "Xalq qəzeti"nin, "ARB 24" televiziyasının xüsusi otaqları fəaliyyət göstərir. "ARB 24" televiziyası, MEDİA Agentliyi, Audiovizual Şura, Mətbuat Şurası ilə birgə tələbələrə təlimlər keçirik. Hesab edirik ki, BDU ilə MEDİA Agentliyi, Audiovizual Şura və audiovizual media subyektlərinin ana dilimizin saflığının qorunması istiqamətində birgə fəaliyyəti, əvvəlki layihələrdə olduğu kimi, bu dəfə də öz müsbət nəticəsini verəcək".

Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov qeyd edib ki, media subyektlərində çalışan əməkdaşlar tərəfindən dilin düzgün, səlis və ədəbi normalara uyğun tətbiqi vacib məsələlərdəndir: "Biz bu gün cəmiyyətin daha çox diqqət mərkəzində olan audiovizual mediada ədəbi dilimizin düzgün işlədilməsi məsələsini müzakirə edirik. Amma ölkə mediasının digər seqmentlərində də ədəbi dilimizin norma və prinsiplərinin qorunması bizim üçün eyni dərəcədə aktualdır. Artıq Mətbuat Şurasında Dil Komissiyası yaradılıb. Ölkə mediasının sistemli monitorinqinin aparılmasının bu sahədə buraxılan səhvlərin operativ formada aradan qaldırılmasına təkan verəcəyinə əminik. Medianın İnkişafı Agentliyi də dilimizin mediada düzgün istifadəsi və qanunvericiliyin tələblərinə uyğun addımların atılması işini davam etdirəcək. Dövlət dilimizin mediada düzgün istifadə edilməsi prosesinə həssas yanaşmaq, bu sahədə jurnalist peşəkarlığının artırılmasına təkan vermək Medianın İnkişafı Agentliyinin əsas prioritetlərindən biridir".

"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rövşən Məmmədov qeyd edib ki, media cəmiyyətin güzgüsüdür. Cəmiyyətdə baş verən bütün müsbət və mənfi hallar, o cümlədən dil mədəniyyətinin səviyyəsi ilk növbədə mediada əks olunur. Bu baxımdan media nümayəndələrinin üzərinə böyük məsuliyyət düşür. Dil normalarına riayət olunması, ədəbi dilin qorunması və düzgün təqdim edilməsi cəmiyyətə birbaşa təsir göstərir. Rövşən Məmmədov vəziyyətdən çıxış yolunun yalnız media ilə bağlı olmadığını, xüsusilə orta məktəblərin birinci sinfindən Azərbaycan dilinin ciddi tədrisinə ehtiyac duyulduğunu bildirib.

Audiovizual Şuranın Aparat rəhbəri Fazil Novruzov deyib ki, yeni informasiya çağırışları - qloballaşma, rəqəmsallaşma və sosial şəbəkələrin sürətli yayılması Azərbaycan dilinin audiovizual mediada istifadəsinə həm yeni imkanlar, həm də risklər gətirir. Audiovizual media dövlətin dil siyasətinin praktik müstəvidə həyata keçirildiyi əsas sahələrdən biridir. Media vasitəsilə təqdim olunan dil formaları cəmiyyətin ümumi dil mədəniyyətini formalaşdırır, xüsusilə gənc nəsildə dil davranışına təsir göstərir. Bu səbəbdən televiziya və radio yayımında ədəbi dil normalarına riayət edilməsi yalnız estetik məsələ deyil, həm də hüquqi və ictimai məsuliyyətdir: "Müasir media mühitində Azərbaycan dilinin saflığını təhdid edən əsas amillərdən biri xarici dillərin təsirinin artmasıdır. Elm, texnologiya, kommunikasiyalar inkişaf etdikcə dillər arasında qarşılıqlı təsir də artır. Azərbaycanın audiovizual mediasında xüsusilə ingilis, rus, türk dillərindən alınma sözlərin geniş yayılması müşahidə olunur. Bəzən Azərbaycan dilində qarşılıq olduğu halda belə, xarici sözlərə üstünlük verilir. Bu hal dilin leksik saflığını zəiflədir və dil mühitində süni bir qarışıqlıq yaradır. Bu cür halların qarşısının alınması məqsədilə Audiovizual Şura ötən ildən televiziya kanallarında xarici sözlərin istifadəsi ilə bağlı monitorinqlər aparır. Hazırda bu monitorinqlər davam etdirilir".

AMEA İ.Nəsimi adına Dilçilik İnstitutunun direktoru, professor Nadir Məmmədli, "REAL Təhlil və İnformasiya Mərkəzi" MMC-nin baş direktoru Mirşahin Ağayev və "ARB 24" telekanalının icraçı direktoru Radik İsmayılov çıxışlarında Azərbaycan dilinin saflığının qorunmasının dövlətin təhlükəsizlik konsepsiyasının mühüm elementi olduğunu bildirib, audiovizual məkanda dil normalarına riayət etmək üçün təkliflərini səsləndiriblər.

BDU-nun Milli mətbuat tarixi kafedrasının müdiri Cahangir Məmmədov "Televiziya nitqində özünü göstərən bəzi problemlər haqqında", Multimedia və elektron kommunikasiya kafedrasının müdiri Qulu Məhərrəmli "Teleradio verilişlərində xarakterik dil nöqsanları və onların aradan qaldırılması yolları", Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının müdiri Xatirə Hüseynova "Gənclərdə nümunəvi nitqin formalaşmasında audiovizual media məzmununun rolu" mövzularında məruzələr ediblər. Məruzələrdə audiovizual mediada müşahidə olunan tələffüz, məna və üslub səhvləri, leksik, qrammatik nöqsanlar sadalanıb. Televiziya və radioların redaktor heyətinin peşəkarlığının artırılmasına, aparıcılar və məzmun yaradıcıları üçün davamlı təlimlərin təşkilinə böyük ehtiyac duyulduğu bildirilib. Çıxışlarda televiziya və radiolarda daxili monitorinq qrupunun yaradılması da təklif olunub.

# Özbəkistanın Çirçik Dövlət Pedaqoji Universitetinin nümayəndə heyəti BDU-da

***Yanvarın 8-də Özbəkistanın Çirçik Dövlət Pedaqoji Universitetinin birinci prorektoru - gənclərin inkişafı və tərbiyə işləri üzrə prorektor Samaridin Koraevin rəhbərlik etdiyi nümayəndə heyəti BDU-da olub.***



Qonaqları salamlayan BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev ortaq kökə, dilə, mədəniyyətə, tarixə malik, qardaş ölkələr olan Azərbaycan və Özbəkistan arasında münasibətlərin yüksələn xətt üzrə inkişaf etdiyini, türkdilli dövlətlərin özünün ən güclü dövrünü yaşadığını qeyd edib. O bildirib ki, BDU da bu əməkdaşlığa öz töhfəsini verməkdədir. Son bir neçə ildə BDU Özbəkistanın ali təhsil müəssisələri ilə əməkdaşlıq əlaqələrini daha da gücləndirib. BDU Özbəkistan universitetləri ilə əməkdaşlıq müqavilələri imzalayıb, tələbə və müəllim mübadiləsi proqramları həyata keçirib. BDU və Özbəkistan ali məktəblərinin ikili diplom proqramları, birgə elmi tədqiqatlar, ortaq konfranslar, sosial tədbirlər həyata keçirməklə bağlı daha böyük potensialı var. Əliş Ağamirzəyev Çirçik Dövlət Pedaqoji Universiteti ilə də akademik mübadilə imkanlarının yüksək olduğunu, xüsusilə magistratura səviyyəsində pedaqogika istiqamətində birgə ikili diplom proqramına ehtiyac duyulduğunu bildirib.

Samaridin Koraev isə təmsil etdiyi ali təhsil müəssisəsinin əsas fəaliyyət istiqamətləri barədə danışıb, BDU ilə əməkdaşlığın əhəmiyyətini vurğulayıb.

Görüşdə universitetlər arasında qarşılıqlı maraq doğuran sahələr üzrə əməkdaşlıq məsələləri müzakirə olunub.

# BDU-da Özbəkistanın Jurnalistika və Kütləvi Kommunikasiya Universitetinin nümayəndə heyəti ilə görüş

***Yanvarın 30-da BDU-da Özbəkistan Respublikasının Jurnalistika və Kütləvi Kommunikasiya Universitetinin nümayəndə heyəti ilə görüş keçirilib.***

Görüşdə BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev, beynəlxalq əlaqələr şöbəsinin müdiri Rauf Həsənov, Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev, Özbəkistan Jurnalistika və Kütləvi Kommunikasiya Universitetinin tədris işləri üzrə prorektoru Ravşan Rayimjanov və qeydiyyat ofisinin meneceri Axror Əhmədov iştirak ediblər.

Prorektor Əliş Ağamirzəyev qonaqlara BDU-nun tarixi, tədris sistemi və elmi-tədqiqat fəaliyyəti barədə məlumat verib. Qeyd olunub ki, BDU Özbəkistanın ali təhsil müəssisələri ilə əməkdaşlığını genişləndirir, tələbə və müəllim mübadiləsi proqramlarını uğurla həyata keçirir. Görüş zamanı əməkdaşlığın dərinləşdirilməsi, həmçinin Jurnalistika fakültəsinin magistratura pilləsi üzrə "Radiotelejurnalistika" və "İctimaiyyətlə əlaqələr" ixtisaslaşmaları çərçivəsində ikili diplom proqramlarının yaradılması imkanları müzakirə olunub.



Sonda nümayəndə heyəti BDU-nun Heydər Əliyev Muzeyi, Genetika və təkamül muzeyi, Faydalı qazıntılar muzeyi ilə tanış olub.

# BDU-nun professoru Qulu Məhərrəmli "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin qonağı olub

**Yanvarın 19-da BDU-nun Multimedia və elektron kommunikasiya kafedrasının müdiri, Əməkdar jurnalist, professor Qulu Məhərrəmli "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin qonağı olub.**



Görüş zamanı o, Azərbaycan dilinin efirdə istifadə xüsusiyyətlərindən, yol verilən səhvlərdən, diqqət olunmalı vacib məqamlardan bəhs edib, orfoepiya və orfoqrafiya qaydalarının qorunmasının əhəmiyyətindən söz açıb.

QSC-nin sədri Rövşən Məmmədov televiziyalarda Azərbaycan dilinin normalarının qorunmasının əhəmiyyətini vurğulayaraq və AzTV-nin bu mövzuya həssas yanaşdığını bildirib.

Görüşdə aktual mövzular ətrafında maraqlı və faydalı fikir mübadiləsi aparılıb.

# 2026-cı il Gənclər üçün Prezident mükafatlarının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

***Gənclər üçün Prezident mükafatına namizədlərin seçilməsi üzrə Ekspert Komissiyasının təklifinə əsasən və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:***

Elm, təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq sahələrində xüsusi fərqlənən aşağıdakı şəxslərə 2026-cı il Gənclər üçün Prezident mükafatları verilsin:

*Ağadadaşov Sərxan Əbülfət oğlu*
*Ağayev Şahmar Zöhrab oğlu*
*Həsənova Elmina Qəhrəman qızı*
*Həsənova Leyla Elçin qızı*
*İsmayıllı Aynur Telman qızı*
*İsmayılov Mahmud Azər oğlu*
*Leysanova Hacıyeva Gülbağda Seyfəl qızı*
*Məmmədova Lamiyə Famil qızı*
*Novruzov Səməd Əbülqasım oğlu*
*Tağızadə Mahir Tahir oğlu.*

***İlham Əliyev***
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 30 yanvar 2026-cı il*

# BDU-da "Şəhərsalma və Memarlıq İli" ilə bağlı Tədbirlər Planı hazırlanıb

***BDU-da 2026-cı ilin Azərbaycan Respublikasında "Şəhərsalma və Memarlıq İli" elan edilməsi ilə əlaqədar Tədbirlər Planı hazırlanıb. BDU Elmi Şurasının 2026-cı ildə ilk iclasında Tədbirlər Planı müzakirə olunaraq qəbul edilib.***

Bildirilib ki, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2025-ci il 22 dekabr tarixli Sərəncamı ilə 2026-cı il Azərbaycan Respublikasında "Şəhərsalma və Memarlıq İli" elan edilib. Bu qərar şəhərsalma və memarlıq sahəsində tarixi irsin qorunması, müasir yanaşmaların tətbiqi, dayanıqlı və inklüziv şəhər mühitinin formalaşdırılması baxımından mühüm əhəmiyyət daşıyır.

Bu il ölkəmiz BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) kimi mühüm beynəlxalq tədbirə də ev sahibliyi edəcək. Bütün bunlar BDU kollektivinin də qarşısına mühüm öhdəliklər qoyur.

"Şəhərsalma və Memarlıq İli" ilə əlaqədar Tədbirlər Planı çərçivəsində BDU-da beynəlxalq, ölkə əhəmiyyətli konfransların, dəyirmi masaların, seminar və təlimlərin keçirilməsi planlaşdırılır. Tədbirlər Planına BDU-nun fakültələrində, Qazax filialında, İqtisadiyyat və Humanitar Kollecdə, eləcə də "Gənc istedadlar" liseyində bu mövzuda tədbirlərin, dərslərin təşkili də daxildir. İl ərzində şəhərsalma və memarlıq sahəsinə dair elmi məqalələrin elmi və kütləvi jurnallarda dərc edilməsi, mövzu üzrə tədqiqatların aparılması və gənc nəslin bu sahədə bilik və bacarıqlarının artırılması nəzərdə tutulur.

Tədbirlər Planı çərçivəsində həyata keçiriləcək fəaliyyətlər şəhərsalma və memarlıq sahəsində elmi-ictimai müzakirələrin genişləndirilməsinə xidmət edəcək.

# BDU-da AZƏRTAC-ın xüsusi auditoriyası açılıb









***Yanvarın 22-də BDU-da Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) xüsusi auditoriyasının açılış mərasimi keçirilib.***

Mərasimdə çıxış edən BDU rektoru Elçin Babayev ölkədə peşəkar jurnalist kadrların hazırlanmasında media subyektləri ilə sıx əməkdaşlığın mühüm rol oynadığını bildirib. O qeyd edib ki, ölkənin nüfuzlu media qurumlarının təhsil prosesinə cəlb olunması və Jurnalistika fakültəsində xüsusi ixtisaslaşmış auditoriyaların yaradılması jurnalist kadrların hazırlanması prosesinə yeni məzmun gətirib. Artıq Jurnalistika fakültəsində 6 ixtisaslaşmış auditoriya fəaliyyət göstərir. Rektor ölkənin ən böyük xəbər istehsalçısı olan AZƏRTAC-ın xüsusi auditoriyasının da gələcəkdə bilik və peşəkarlığın formalaşdığı mühüm bir məkana çevriləcəyinə əminliyini bildirib: “AZƏRTAC kimi nüfuzlu media qurumunun bu sahədə gördüyü işlər daim inkişafın və keyfiyyətin göstəricisi olub. Xəbərlərin dəqiqliyi, operativliyi və fotomaterialların yüksək keyfiyyəti AZƏRTAC-ı etibarlı informasiya mənbəyi kimi fərqləndirir. Bu gözəl auditoriya üçün təşəkkürümü bildirir, auditoriyanın fəaliyyətinə uğurlar arzulayıram. Bu, təhsilalanlar və müəllimlər üçün vacib stimuldur. Əminəm ki, gələcəkdə AZƏRTAC-ın peşəkar əməkdaşları BDU-da təhsil prosesinə öz töhfələrini verəcəklər”.

AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev bildirib ki, BDU ölkəmizin ən qocaman ali məktəbi, jurnalistlər də daxil olmaqla bir çox sahə üzrə cəmiyyətə faydalı mütəxəssislər yetişdirən qabaqcıl təhsil ocağıdır. 1919-cu ildə fəaliyyətə başlayan Bakı Dövlət Universiteti bir əsrdən çoxdur ki, cəmiyyətimizə, elmimizə, təhsilimizin inkişafına xidmət edir. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin də məzunu olduğu bu müqəddəs təhsil ocağı minlərlə gəncə müasir standartlara uyğun biliklər aşılayır. Universitetin Jurnalistika fakültəsi isə ölkəmizdə peşəkar jurnalist kadrlarının hazırlanmasında mühüm rol oynayır: “AZƏRTAC-la BDU arasında sıx əməkdaşlıq əlaqələri mövcuddur. Bu əməkdaşlıq gənc kadrların peşəkar hazırlığı üçün geniş imkanlar yaradır. Xüsusilə AZƏRTAC-da təşkil olunan təcrübə proqramları Jurnalistika fakültəsinin tələbələrinə müasir media standartlarını dərindən mənimsəməyə şərait yaradır. Təcrübə proqramını uğurla başa vuran, fərqlənən tələbələr Agentlikdə işlə təmin olunurlar. Jurnalistika fakültəsində Agentliyin xüsusi auditoriyasının açılması cəmiyyətimiz, o cümlədən Bakı Dövlət Universiteti və AZƏRTAC üçün çox faydalı olacaq. Bu auditoriyada müxtəlif görüşlər, dərslər, təlimlər keçiriləcək. Bu da Universitetin Jurnalistika fakültəsinin tələbələri üçün AZƏRTAC-ı daha əlçatan edəcək”.

BDU-nun Milli mətbuat tarixi kafedrasının müdiri, professor Cahangir Məmmədli Bakı Dövlət Universiteti və AZƏRTAC-ın milli maraqlara söykənən, ictimai məsuliyyət daşıyan və xalqla sıx bağlı qurumlar olduğunu vurğulayıb. O qeyd edib ki, bu iki nüfuzlu müəssisə arasında qurulan əməkdaşlıq olduqca uğurlu və nümunəvidir. Xüsusilə Jurnalistika fakültəsinin tələbələrinin AZƏRTAC-da istehsalat təcrübəsi keçməsi, daha sonra peşəkar jurnalist kimi burada fəaliyyətə başlaması bu əməkdaşlığın real və müsbət nəticəsidir.

Medianın İnkişafı Agentliyinin (MEDİA) İcraçı direktoru Əhməd İsmayılov BDU-da xüsusi auditoriyaların yaradılmasının tələbələr üçün ciddi stimul olduğunu bildirib. Qeyd edib ki, bu cür layihələr gənclərin peşəkar inkişafına, media mühitinə daha yaxından inteqrasiyasına mühüm töhfə verir: “AZƏRTAC xüsusi auditoriya ideyasını uğurla reallaşdıraraq, praktik və faydalı bir layihəyə çevirib. Əminəm ki, bu tendensiya gələcəkdə də ardıcıl və davamlı şəkildə inkişaf edəcək”.

Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid isə diqqətə çatdırıb ki, AZƏRTAC-ın xüsusi auditoriyası uğurlu bir ideyanın gerçəkləşməsinin davamıdır: “Gənclərin AZƏRTAC-da fəaliyyət göstərməsi onların peşəkar formalaşması baxımından olduqca uğurlu və səmərəli nəticələr verir. Bu uğurlu əməkdaşlığın gələcəkdə də davam edəcəyinə və daha geniş miqyas alacağına inanırıq”.

Audiovizual Şuranın Aparat rəhbəri Fazil Novruzov, “ARB 24” televiziyasının İcraçı direktoru Radik İsmayılov, "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin sədr müavini Rafiq Həşimov, Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev, BDU-nun Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının müdiri Aynur Nəsirova çıxışlarında AZƏRTAC-ın xüsusi auditoriyasının tələbələrin istehsalatla birbaşa əlaqələrinin yaradılması baxımından əlverişli imkan olduğunu qeyd edib, bunun mətbuatın, BDU və AZƏRTAC-ın inkişafına töhfə verəcəyinə əminliklərini bildiriblər.

# BDU-da “Pakistan otağı” açılıb

***Yanvarın 26-da BDU və Pakistanın İslamabad Fond Universitetinin birgə təşkilatçılığı ilə Şərqşünaslıq fakültəsində “Pakistan otağı”nın açılışı keçirilib.***






Mərasimdə çıxış edən BDU-nun rektoru Elçin Babayev Azərbaycan və Pakistan arasında dostluq və qardaşlıq münasibətlərinin yüksək səviyyədə inkişaf etdiyini bildirib. Qeyd edib ki, bu əlaqələrin daha da dərinləşməsində elm, təhsil, mədəniyyət sahələrində əməkdaşlıq da böyük rol oynayır. BDU-nun beynəlxalq əlaqələrində Pakistanın ali təhsil və tədqiqat müəssisələri ilə əməkdaşlıq önəmli yer tutur. BDU-nun Şərqşünaslıq fakültəsində 2001-i ildən Urdu dili şöbəsi fəaliyyətə başlayıb. Hazırda Orta Şərq dilləri və ədəbiyyatı kafedrasında urdu dili, urdu ədəbiyyatı istiqaməti üzrə tədris aparılır. BDU və İslamabad Fond Universiteti arasında əməkdaşlıq memorandumu uğurla davam edir və elmi və mədəni əlaqələr daha da möhkəmləndirilir. Rektor “Pakistan otağı”nın açılışının da iki dost ölkə arasında əlaqələrin inkişafına, urdu dilinin tədrisinə mühüm töhfə verəcəyinə əminliyini bildirib.

Pakistan İslam Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Qasım Mohiuddin çıxışında Azərbaycan və Pakistan arasında münasibətlərin tarixi köklərə, qarşılıqlı etimada və ortaq dəyərlərə əsaslandığını vurğulayıb. O, xüsusilə ali təhsil müəssisələri arasında qurulan əməkdaşlığın xalqlarımızın birbirini daha yaxından tanımasında mühüm rol oynadığını qeyd edib. Səfir BDU-da urdu dilinin tədrisini və “Pakistan otağı”nın yaradılmasını mədəni və akademik mübadilənin institusional təzahürü kimi dəyərləndirərək, Pakistan tərəfinin bu cür təşəbbüsləri daim dəstəklədiyini bildirib.

Pakistanın İslamabad Fond Universitetinin rektoru Məhəmməd Kalem Asif çıxışında BDU ilə qurulan əməkdaşlığa xüsusi önəm verdiklərini bildirib. O, iki universitet arasında birgə elmi tədqiqatların aparılması, akademik mübadilə proqramlarının həyata keçirilməsi, ortaq layihə və tədbirlərin təşkili üçün geniş imkanların mövcud olduğunu qeyd edib. Rektor “Pakistan otağı”nın açılışını əməkdaşlığın möhkəmləndirilməsi baxımından mühüm addım kimi dəyərləndirərək, bu təşəbbüsün gələcəkdə birgə layihələrin və mədəni-elmi əlaqələrin daha da genişlənməsinə töhfə verəcəyinə əminliyini ifadə edib.

Sonra Şərqşünaslıq fakültəsinin tələbələrinin Azərbaycan-Pakistan əlaqələrinə dair hazırladıqları videoçarx nümayiş olunub. “Regionşünaslıq” (Pakistan üzrə) ixtisası üzrə təhsil alan tələbələr urdu dilində şeirlər səsləndiriblər.

# BDU-da 20 Yanvar faciəsinin 36-cı ildönümü qeyd olunub




(əvvəli 1-ci səhifədə)

20 Yanvar hadisələrində özünü göstərən bu birlik, mətinlik bizə həm də 44 günlük Vətən müharibəsində şanlı Zəfəri qazandırdı. Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mahir sərkərdəliyi, qətiyyəti, qüdrətli Ordumuzun rəşadəti, xalqımızın birliyi ilə qazandığımız tarixi Zəfərlə bütün şəhidlərimizin intiqamı alındı".

Milli Məclis (MM) sədrinin müavini, professor Musa Qasımlı, MM-in Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, Nazirlər Kabineti yanında Terminologiya Komissiyasının sədr müavini, professor, 20 Yanvar şəhidi, BDU-nun məzunu Yusif Sadıqovun bacısı Sayalı Sadıqova və BDU-nun Filologiya fakültəsinin dosenti Etibar Talıblı çıxışlarında 20 Yanvar faciəsinin tarixi-siyasi əhəmiyyətindən, şəhidlərin qəhrəmanlığından və bu hadisənin xalqımızın milli yaddaşındakı yerindən bəhs ediblər. Çıxışlarda vurğulanıb ki, Ümummilli Lider Heydər Əliyevin 20 Yanvar faciəsinə verdiyi siyasi-hüquqi qiymət bu hadisəyə obyektiv münasibətin formalaşmasında mühüm rol oynayıb. Şəhidlərin xatirəsinin daim uca tutulması dövlət siyasətinin əsas istiqamətlərindən biridir.

Anım tədbiri BDU-nun Mədəniyyət-Yaradıcılıq Mərkəzinin hazırladığı bədii hissə ilə davam edib.

# 20 Yanvar faciəsinə həsr olunmuş sərgi

*Yanvarın 19-da BDU-da 20 Yanvar faciəsinin 36-cı ildönümü ilə əlaqədar foto və kitab sərgisi təşkil olunub.*



Elmi Kitabxananın təşkil etdiyi sərgidə 20 Yanvar hadisələri ilə bağlı Azərbaycan, rus və digər dillərdə dərc olunmuş kitablar, Vətənimizin müstəqilliyi və torpaqlarımızın erməni işğalçılarından azad olunması uğrunda qəhrəmancasına həlak olan şəhidlərimiz barədə nəşrlər, həmin müdhiş gecənin dəhşətlərini əks etdirən fotolar nümayiş olunub.

Sərgidə BDU-nun nəzdində fəaliyyət göstərən "Gənc istedadlar" liseyinin şagirdlərinin qanlı Yanvar hadisələrini əks etdirən rəsm əsərləri də yer alıb.

# BDU-da tədbir: "Tarixin qanlı səhifəsi"

***Yanvarın 19-da Coğrafiya fakültəsində 20 Yanvar faciəsinin 36-cı ildönümünə həsr olunmuş "Tarixin qanlı səhifəsi" adlı anım tədbiri keçirilib.***

Fakültə rəhbərliyinin və Tələbə Gənclər Təşkilatının (TGT) birgə təşkilatçılığı ilə keçirilən tədbirdə Dövlət himni səsləndirilib, 20 Yanvar şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Coğrafiya fakültəsinin dekanı, professor Məqsəd Qocamanov 20 Yanvar hadisələrinin Azərbaycan xalqının tarixində silinməz iz buraxmış faciələrdən biri olduğunu bildirib. O qeyd edib ki, bu qanlı hadisə xalqımızın azadlıq və müstəqillik uğrunda mübarizəsinin bariz nümunəsidir. Dekan 20 Yanvar şəhidlərinin göstərdiyi qəhrəmanlığın xalqımız tərəfindən daim ehtiramla xatırlandığını vurğulayıb, gənclərin bu tarixi hadisələri dərindən öyrənməsinin və milli-mənəvi dəyərlərə bağlı ruhda formalaşmasının vacibliyini diqqətə çatdırıb.

Tədbirin bədii hissəsində 20 Yanvar faciəsinə həsr olunmuş şeirlər səsləndirilib, mövzu ilə bağlı videoçarx nümayiş etdirilib, həmçinin həmin gecənin ağrılı anlarını əks etdirən səhnəcik təqdim olunub.

# BDU kollektivi Şəhidlər xiyabanını ziyarət edib

***Yanvarın 20-də Bakı Dövlət Universitetinin kollektivi 20 Yanvar faciəsinin 36-cı ildönümü münasibətilə Şəhidlər xiyabanını ziyarət edib.***

BDU əməkdaşları Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin xatirəsini hörmət və ehtiramla yad edib, məzarları üzərinə qərənfillər düzüblər.

# BDU-da "workshop": "CV-dən kənarda qalan bacarıqlar"

***Yanvarın 29-da Bakı Dövlət Universitetinin məzunu, üçüncü "Yüksəliş" müsabiqəsinin qalibi, təlimçi və mentor Toğrul Ələkbərov "BDU könüllüləri" təşkilatının təşəbbüsü ilə tələbələr üçün "CV-dən kənarda qalan bacarıqlar" mövzusunda "workshop" keçirib.***

Tədbirdə tələbələrə müasir əmək bazarında təkcə CV-də qeyd olunan akademik göstəricilərin deyil, ünsiy-yət, komandada işləmə, liderlik, problem həll etmə, vaxtın idarə olunması və emosional zəka kimi bacarıqların əhəmiyyəti praktiki nümunələr əsasında izah olunub.

Təlimçi real iş mühitindən nümunələr və interaktiv tapşırıqlarla bu bacarıqların inkişaf etdirilməsi yollarını iştirakçılara təqdim edib.

Sonda iştirakçıların sualları cavablandırılıb, onların karyera planlamasında diqqət etməli olduqları mühüm məqamlar önə çəkilib.

# BDU-da "Heydər Əliyev mühazirələri" çərçivəsində Milli Məclisin üzvü Samir Vəliyevlə görüş

***Yanvarın 29-da BDU və Yeni Azərbaycan Partiyasının (YAP) Yasamal rayon təşkilatının birgə təşkilatçılığı ilə "Heydər Əliyev mühazirələri" layihəsi çərçivəsində Milli Məclisin üzvü Samir Vəliyevlə görüş keçirilib.***

Giriş nitqi ilə çıxış edən BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov "Heydər Əliyev mühazirələri" layihəsi haqqında məlumat verib, BDU-da uğurla həyata keçirilən gənclər siyasətindən danışıb. O qeyd edib ki, Ümummilli Lider Heydər Əliyev Azərbaycanda dövlət gənclər siyasətinin banisi, gənclərin ən böyük hamisi olub. Ulu Öndərin müəyyənləşdirdiyi gənclər siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycanda dövlət gənclər siyasətini daha da inkişaf etdirmək, gənclərin dövlət qulluğunda məsul vəzifələrdə iştirakını təmin etmək, sosial-iqtisadi problemlərinin həllini təmin etmək məqsədi ilə ölkə rəhbərliyi bütün lazımi tədbirləri həyata keçirir, önəmli Dövlət proqramları qəbul olunur.

YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev çıxışında vurğulayıb ki, bu gün ölkəmizdə mövcud olan sabitlik və inkişafın, eləcə də Azərbaycanın qazandığı nailiyyətlərin əsasında Ulu Öndər Heydər Əliyevin uzaqgörən və müdrik siyasi xətti dayanır. O, həmçinin bu gün gənclər üçün yaradılan geniş imkanlar, müasir təhsil şəraiti və dövlətin gənclərə göstərdiyi diqqətin Ulu Öndərin ideologiyasının uğurlu davamının bariz nümunəsi olduğunu vurğulayıb.




Milli Məclisin üzvü, professor Samir Vəliyev bildirib ki, ölkəmizdə gənclərlə iş sahəsində mühüm tədbirlərin gerçəkləşdirilməsi Ulu Öndərin adı ilə bağlıdır. 1993-cü ildə xalqın istəyi ilə hakimiyyətə qayıdan Ümummilli Liderin diqqət yetirdiyi mühüm istiqamətlərdən biri də gənclərlə iş olub. Həyata keçirilən gənclər siyasətinin başlıca məqsədi milli dəyərlərə söykənən, Vətəninə, xalqına bağlı olan müasir düşüncəli gənc nəslin formalaşdırılması, bu gəncliyin potensialından dövlətin inkişafı naminə istifadə edilməsidir. 1994-cü ildə Gənclər və İdman Nazirliyinin yaradılması ilə dövlətin gənclərlə bağlı siyasəti vahid mərkəzdən idarə olunmağa başlayıb: "Ulu Öndərin gənclərlə çoxsaylı görüşləri, tövsiyə və qərarları onların ümummilli maraqlar və dövlət mənafeyi ətrafında birləşmələrinə xidmət edirdi. Bunun məntiqi nəticəsidir ki, 1996-cı ilin 2 fevralında Azərbaycan gənclərinin birinci forumu keçirildi. Ümummilli Liderin Sərəncamı ilə fevralın 2-nin Azərbaycan Gəncləri Günü elan edilməsi gəncliyin inkişafına xüsusi diqqət və qayğısının əyani göstəricisi idi. Hazırda Prezident İlham Əliyev tərəfindən dövlət gənclər siyasəti uğurla davam etdirilir. 2011-ci il 19 dekabr tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun yaradılması, 2013-cü il 2 iyul tarixində isə ölkədə ilk dəfə "Gənclər üçün Prezident Mükafatı"nın təsis edilməsi Azərbaycan gənclərinin müxtəlif sahələrdə uğurla fəaliyyət göstərərək yeni nailiyyətlər qazanmasına stimul və dayanıqlı zəmin yaradıb. Gənclər Prezident İlham Əliyevin islahatlar kursunun çox mühüm qüvvəsini təşkil edir".

# BDU-da qış imtahan sessiyasında 22 minə yaxın tələbə iştirak edir



*BDU-da 2025/2026-cı tədris ilinin payız semestrinin qış imtahan sessiyası keçirilir.*

İmtahanlar iki növbədə (bakalavriat səviyyəsi üzrə yazılı imtahanlar saat 10:00-13:00-dək, şifahi və magistratura səviyyəsi üzrə imtahanlar saat 14:00-16:30-dək) təşkil olunub.

Sessiya ərzində bakalavriat səviyyəsində 923 qrup üzrə 21000-dən çox, magistratura səviyyəsində isə 455 ixtisaslaşma üzrə 2334 tələbə imtahan verəcək.

Sessiya zamanı üzrlü və üzrsüz səbəblərdən imtahanda iştirak etməyən təhsilalanlara həmin fənlərdən imtahan vermək üçün 2026-cı ilin fevral ayının 2-dən 6-dək şərait yaradılacaq.

Sessiyanın gedişinə operativ nəzarət, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığı təmin etmək məqsədilə İmtahan Qərargahı və Apelyasiya Komissiyası yaradılıb. Komissiya sessiya müddətində imtahanların gedişi ilə əlaqədar ərizə, təklif və Elm və Təhsil Nazirliyinin "Qaynar xətt"i vasitəsilə daxil olmuş şikayətlərin araşdırılmasını təmin edəcək.

# Professor Qulu Məhərrəmliyə "Şirməmməd Hüseynov" mükafatı təqdim olunub



*Yanvarın 12-də Professor Qulu Məhərrəmliyə "Şirməmməd Hüseynov" mükafatı təqdim olunub.*

Azərbaycan jurnalistikasında peşəkarlığın, prinsipial mövqenin və milli dövlətçilik düşüncəsinin rəmzinə çevrilən "Şirməmməd Hüseynov mükafatı" bu il tanınmış jurnalist, pedaqoq və ictimai xadim Qulu Məhərrəmliyə təqdim olunub. Təqdimat mərasimi Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsində keçirilib.

Tədbirdə media və ictimaiyyət nümayəndələri, tanınmış jurnalistlər iştirak edib.

Çıxışlarda "Şirməmməd Hüseynov mükafatı"nın yalnız peşəkar fəaliyyətə görə deyil, jurnalistikanı tarixi yaddaş, ictimai məsuliyyət və milli düşüncə daşıyıcısı kimi qəbul edən şəxslərə təqdim edildiyi vurğulanıb. Qeyd olunub ki, bu mükafat fərdi münasibətlərə deyil, ciddi meyarlar və yekdil mövqe əsasında verilir.

Mərasim boyu Şirməmməd Hüseynovun elmi və publisistik irsinin Azərbaycan jurnalistikasında tutduğu yer xüsusi dəyərləndirilib, onun formalaşdırdığı məktəbin bu gün də yaşadığı diqqətə çatdırılıb. Qulu Məhərrəmlinin fəaliyyəti isə həmin məktəbin davamı kimi təqdim olunub.

Sonda mükafat laureatı göstərilən diqqətə və yüksək qiymətə görə təşəkkür edib, Şirməmməd Hüseynovun jurnalistikaya gətirdiyi dəyərlərin bu gün də aktuallığını qoruduğunu bildirib.

# BDU THE-nin ixtisaslar üzrə reytinq siyahısında yer alıb

***Nüfuzlu reytinq təşkilatlarından olan "Times Higher Education" (THE) tərəfindən 2026-cı il üçün dünyanın ən nüfuzlu ali təhsil müəssisələrinin ixtisaslar üzrə reytinq siyahısı açıqlanıb. Reytinq siyahısında Bakı Dövlət Universiteti fizika elmləri (fizika, kimya, geologiya, astronomiya, riyaziyyat və digər əlaqəli sahələr) və mühəndislik (kimya mühəndisliyi, geologiya mühəndisliyi, hidrogeologiya mühəndisliyi, geofizika mühəndisliyi və digər mühəndislik istiqamətləri) üzrə 1001–1250-ci mövqedə qərarlaşıb.***

Ümumilikdə, BDU-nun qiymətləndirmə nəticələri üzrə əvvəlki illə müqayisədə müsbət dinamika müşahidə olunub. Belə ki, fizika elmləri üzrə ümumi qiymətləndirmə nəticələri 14,5 faiz, mühəndislik sahəsi üzrə isə 13,9 faiz artıb. Bu artım müvafiq istiqamətlərdə Universitetdə elmi-tədqiqat fəaliyyətinin intensivləşməsi, akademik potensialın gücləndirilməsi, beynəlxalq elmi nəşrlərdə təmsil olunma səviyyəsinin yüksəlməsi və sənaye ilə əməkdaşlığın genişləndirilməsi istiqamətində həyata keçirilən sistemli tədbirlərin nəticəsi kimi qiymətləndirilə bilər.

Məlumat üçün bildirək ki, THE tərəfindən tərtib olunan ixtisaslar üzrə reytinq siyahısı ali təhsil müəssisələrinin konkret sahələrdə fəaliyyətini qiymətləndirən nüfuzlu beynəlxalq reytinq siyahısı hesab olunur. Bu reytinq çərçivəsində universitetlər tədris keyfiyyəti, elmi-tədqiqat fəaliyyəti, elmi nəşrlərə edilən sitatlar, sənaye ilə əməkdaşlıqdan əldə olunan gəlirlər və beynəlxalqlaşma səviyyəsi kimi əsas göstəricilər əsasında qiymətləndirilir. Sözügedən göstəricilər universitetlərin ayrı-ayrı elmi sahələri üzrə güclü tərəflərini və inkişaf potensialına malik istiqamətlərini müəyyən etməyə imkan verir.

Qeyd edək ki, ilk dəfə olaraq Azərbaycan THE tərəfindən tərtib olunan müvafiq ixtisaslar üzrə reytinq siyahısında 4 ali təhsil müəssisəsi və 4 fərqli ixtisas üzrə təmsil olunur. Bu nəticə ölkənin ali təhsil sisteminin beynəlxalq reytinq müstəvisində tanınmasının və rəqabət qabiliyyətinin artdığını göstərir. Sözügedən reytinq siyahısında yer alan digər ali təhsil müəssisələrini də təbrik edir, onlara gələcək fəaliyyətlərində daha böyük uğurlar arzulayırıq.




# BDU-nun SABAH qruplarının tələbəsi Tacikistanda beynəlxalq elmi tədbirdə təqdimat edib

*Yanvarın 7-də BDU-nun SABAH qruplarının "Biologiya müəllimliyi" ixtisasının IV kurs tələbəsi Vüsalə Cəfərli Tacikistanın Düşənbə şəhərində "MDB-yə üzv dövlətlərin Kimyaçılar Məktəbi" layihəsi çərçivəsində təşkil olunmuş beynəlxalq elmi tədbirdə "Nanohissəciklər və canlı sistemlər: faydalar və risklər" mövzusunda təqdimat edib.*

Beynəlxalq elmi tədbirdə müasir kimyanın aktual problemləri, kimya təhsili və elmi-tədqiqat fəaliyyətinin inkişaf perspektivləri, ekoloji təhlükəsizlik, suyun kimyəvi təmizlənməsi üsulları, innovativ kimyəvi texnologiyalar və beynəlxalq elmi əməkdaşlıq imkanları ətrafında müzakirələr aparılıb. Proqram çərçivəsində alimlərin mühazirələri, iştirakçıların elmi təqdimatları və məruzələri dinlənilib.

# BDU İndoneziyanın Multimedia Nusantara Universiteti ilə əməkdaşlığa başlayır

*Yanvarın 28-də BDU ilə İndoneziya Respublikasının Multimedia Nusantara Universiteti arasında əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb.*

Memorandumu BDU-nun rektoru Elçin Babayev və Multimedia Nusantara Universitetinin rektoru Andrey Andoko imzalayıblar.

Sənəd hər iki universitetin nəzdində fəaliyyət göstərən fakültə, institut və kolleclərdə təlim-tədris prosesinin təkmilləşdirilməsi, eləcə də beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə birgə layihələrin həyata keçirilməsini nəzərdə tutur. Bu çərçivədə konfrans, sərgi, seminar, simpozium, qısamüddətli kurslar və təlimlərin təşkili, ortaq elmi-tədqiqat işlərinin aparılması planlaşdırılır.

Memorandumda, həmçinin elmi jurnallarda birgə nəşrlərin hazırlanması, ortaq akademik proqramların, tədris planlarının və sillabusların işlənməsi, təlimlərin keçirilməsi, akademik və inzibati heyətin, tələbələrin, magistrantların, doktorantların və tədqiqatçıların qarşılıqlı mübadiləsi kimi məsələlər əksini tapıb.

Qeyd edək ki, əsası 2005-ci ildə qoyulmuş Multimedia Nusantara Universiteti QS Asiya Universitetləri Reytinqində 451–460-cı yerlər arasında qərarlaşıb.

# BDU-da payız semestrinin imtahan sessiyası başa çatıb

*Bakı Dövlət Universitetində payız semestrinin imtahan sessiyası başa çatıb.*

Bakalavriat səviyyəsində 923 qrup üzrə 21000-dən çox, magistratura səviyyəsində isə 455 ixtisaslaşma üzrə 2334 tələbə imtahan verib. Sessiya zamanı üzrlü və üzrsüz səbəblərdən imtahanda iştirak etməyən təhsilalanlara həmin fənlərdən imtahan vermək üçün fevralın 10-dək şərait yaradılacaq. Sessiyanın gedişinə operativ nəzarət, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığı təmin etmək məqsədilə İmtahan Qərargahı və Apellyasiya Komissiyası fəaliyyət göstərib. Komissiya sessiya müddətində imtahanların gedişi ilə əlaqədar ərizə, təklif və Elm və Təhsil Nazirliyinin "Qaynar xətt"i vasitəsilə daxil olmuş şikayətlərin araşdırılmasını təmin edib.

# Ziyalı qadınların tarixi yaddaşı, humanist mövqeyi və gələcəyə çağırışı

***Böyük yolun davamı: Qərbi Azərbaycan yaddaşı, tarixi ədalət və hüquqi qayıdış perspektivi***

***Böyük yol nədən başlayır?***

Tarix elə məqamlar yaradır ki, həmin anlarda susmaq neytrallıq deyil, mövqe itkisidir. Qərbi Azərbaycan məsələsi məhz belə tarixi həqiqətlərdəndir. Bu mövzu təkcə keçmişin xatırlanması yox, milli yaddaşın, siyasi məsuliyyətin və beynəlxalq hüququn müasir çağırışlar fonunda yenidən oxunuşudur.

“Böyük yolun davamı” anlayışı bir metafora olmaqla yanaşı, yarımçıq qalmış tarixi prosesin, pozulmuş hüquqların və susdurulmuş həqiqətlərin davamını ifadə edir. Bu yol XX əsrin əvvəllərində zorla qırılan, deportasiyalarla kəsilən, yaddaşdan silinməyə çalışılan türk varlığının siyasi və hüquqi reabilitasiyası yoludur.

Bakı Dövlət Universitetində Qərbi Azərbaycan İcması ilə birgə keçirilən elmi-praktiki konfrans da göstərir ki, artıq bu mövzu:

-təkcə ailə xatirələri səviyyəsində deyil,

-yalnız emosional diskursda deyil,

-akademik, hüquqi və institusional müstəvidə müzakirə olunur.

Bu isə “Böyük yol” un yeni mərhələyə keçdiyini göstərir.

***Qərbi Azərbaycan: Coğrafi anlayışdan milli yaddaşa***

Qərbi Azərbaycan anlayışı sadəcə coğrafi termin deyil. Bu anlayış tarixi, etnik, mədəni və siyasi qatları olan çoxölçülü bir reallıqdır. İrəvan xanlığının əraziləri, Göyçə mahalı, Zəngibasar, Vedibasar, Dərələyəz, Ağbaba, Şörəyel və digər bölgələr yüzilliklər boyu azəri türklərinin: etnik kimliyinin, mədəni irsinin, dini-mənəvi dəyərlərinin formalaşdığı məkanlar olmuşdur.

Bu ərazilərdə: məscidlər, qəbiristanlıqlar, toponimlər, folklor və şifahi xalq yaradıcılığı Azərbaycan varlığının canlı sübutu idi. Lakin XX əsrdə baş verən siyasi proseslər nəticəsində bu varlıq ardıcıl və planlı şəkildə silinməyə çalışıldı.

Qərbi Azərbaycan anlayışı ilk baxışda coğrafi termin kimi qəbul edilə bilər. Lakin bu anlayışın mahiyyəti sırf xəritə üzərində müəyyən edilmiş ərazi çərçivəsindən qat-qat genişdir. Qərbi Azərbaycan, hər şeydən əvvəl, Azərbaycan xalqının tarixi yaddaşında, kollektiv şüurunda və mədəni identikliyində dərin iz buraxmış bir sivilizasiya məkanıdır. Bu anlayışın arxasında yalnız torpaq deyil, insan taleləri, mədəni irs, sosial münasibətlər və siyasi proseslər dayanır.

Tarixi mənbələr göstərir ki, indiki Ermənistan Respublikasının ərazisi uzun əsrlər boyu azəri türklərinin kompakt yaşadığı, dövlətçilik, iqtisadiyyat və mədəniyyət baxımından formalaşdığı məkan olmuşdur. İrəvan xanlığı bu baxımdan təkcə inzibati-siyasi qurum deyil, Azərbaycan siyasi-mədəni tarixinin mühüm dayaqlarından biri idi. İrəvan şəhəri isə XIX əsrin əvvəllərinədək azəri türklərinin etnik və mədəni baxımdan üstünlük təşkil etdiyi şəhər olmuşdur. Bu ərazilərdə mövcud olmuş yüzlərlə türk kəndi, məscidlər, qəbiristanlıqlar, körpülər, karvansaralar və yaşayış məskənləri yerli azəri türk əhalinin tarixi varlığının maddi sübutlarıdır. Toponimlər çay adları, dağ adları, kənd və yaylaq adları Azərbaycan dilinin və mədəniyyətinin bu ərazilərdəki dərin köklərini təsdiqləyən ən davamlı yaddaş elementləridir.

Lakin XX əsrin siyasi kataklizmləri fonunda bu coğrafi-mədəni məkan məqsədli şəkildə etnik tərkibdən təmizlənmiş, tarixi izləri silinməyə çalışılmışdır. Azəri türklərinin deportasiyası ilə paralel olaraq toponimlərin dəyişdirilməsi, mədəni irsin məhv edilməsi, tarixin saxtalaşdırılması prosesi aparılmışdır. Bu isə Qərbi Azərbaycan anlayışını təkcə coğrafi yox, yaddaş və kimlik mübarizəsinin predmetinə çevirmişdir.

Bu gün Qərbi Azərbaycan dedikdə artıq: fiziki olaraq itirilmiş məkan, lakin mənəvi olaraq qorunmuş yaddaş nəzərdə tutulur. Çünki deportasiya olunan əhali öz evlərini itirsə də, xatirələrini, kimliyini və mənsubiyyət hissini itirməmişdir. Nəsildən-nəslə ötürülən ailə hekayələri, kənd adları, ata-baba yurdları haqqında danışılan xatirələr Qərbi Azərbaycanı yaşayan milli yaddaş fenomeninə çevirmişdir.

Məhz bu baxımdan Qərbi Azərbaycan məsələsi yalnız tarixçilərin araşdırma mövzusu deyil. Bu, eyni zamanda: siyasi identiklik, milli təhlükəsizlik, tarixi ədalət məsələsidir. Çünki milli yaddaşı olmayan xalq gələcəyini də sağlam şəkildə qura bilməz. Beləliklə, Qərbi Azərbaycan anlayışı coğrafi məhdudiyyətləri aşaraq milli yaddaşın, tarixi məsuliyyətin və gələcək hüquqi iddiaların simvoluna çevrilmişdir. Bu yaddaş nə qədər sistemli şəkildə elmi müstəvidə qorunub təqdim olunarsa, “Böyük yolun davamı” bir o qədər möhkəm intellektual və mənəvi əsaslara söykənəcəkdir.

***Deportasiyalar: Tarixi fakt, yoxsa unudulmuş cinayət?***

Qərbi Azərbaycandan azəri türklərinin deportasiyası təsadüfi yox, sistemli siyasətin nəticəsi idi. Bu proses bir neçə mərhələdə həyata keçirildi: Qərbi Azərbaycan məsələsinin mərkəzində dayanan əsas həqiqətlərdən biri azəri türk əhalinin bu ərazilərdən ardıcıl və planlı şəkildə deportasiya olunmasıdır. Bu hadisələr çox zaman sadəcə “tarixi proses”, “mürəkkəb dövrün nəticəsi” və ya “qarşılıqlı köçlər” kimi təqdim edilir. Lakin məsələni yalnız bu çərçivədə izah etmək həqiqətin mahiyyətini təhrif etmək deməkdir. Çünki söhbət təsadüfi köçlərdən deyil, etnik mənsubiyyətə əsaslanan sistemli zorakılıqdan və təmizləmə siyasətindən gedir.

Deportasiya anlayışı beynəlxalq hüquqda məcburi xarakter daşıyır və insanın: yaşadığı ərazidən zorla çıxarılması, mülkiyyət hüququndan məhrum edilməsi, təhlükəsiz yaşayış mühitinin dağıdılması kimi halları əhatə edir. Qərbi Azərbaycanda baş verənlər bu tərifin bütün elementlərinə tam uyğun gəlir.

***1988-1991-ci illər: son və tam etnik təmizləmə.*** Qərbi Azərbaycandan azəri türklərinin deportasiyasının son mərhələsi 1988-1991-ci illəri əhatə edir. Ermənistan ərazisində yaşayan bütün azəri türk əhali: fiziki zorakılıq, psixoloji təzyiq, açıq hədələr nəticəsində tamamilə qovuldu. Bu mərhələdə artıq heç bir “birgə yaşayış” anlayışından söhbət gedə bilməzdi. Ermənistan faktiki olaraq monoetnik dövlətə çevrildi. Bu isə beynəlxalq hüquq baxımından: insanlığa qarşı cinayət kateqoriyasına daxil olan açıq fakt idi.

***Unudulmuş cinayət.*** Ən təhlükəli məqam ondan ibarətdir ki, bu deportasiyalar uzun müddət: beynəlxalq müstəvidə lazımi qiymətini almadı, qlobal ictimaiyyət tərəfindən görməzdən gəlindi, regional siyasi konjunkturanın kölgəsində qaldı. Cinayətin cəzasız qalması isə onu normallaşdırır və təkrarlanma riskini artırır. Deportasiyaların “unudulmuş fakt” a çevrilməsi təkcə tarixi ədalətsizlik deyil, eyni zamanda gələcək sülh üçün ciddi təhlükədir.

***Tarixi faktmı, yoxsa hüquqi məsuliyyət?*** Bu gün sual artıq belə qoyulmalıdır: Qərbi Azərbaycan deportasiyaları sadəcə tarix kitablarının bir səhifəsidirmi, yoxsa hüquqi-siyasi məsuliyyət tələb edən cinayətdirmi?

***Akademik mühitin hüquqi prosesdə rolu.*** Hüquqi müstəvidə davam edən prosesin uğuru birbaşa elmi əsaslandırmadan asılıdır. Hüquqi iddia yalnız emosional arqumentlərlə deyil,: arxiv sənədləri, statistik göstəricilər, beynəlxalq presedentlər, akademik tədqiqatlarla dəstəklənməlidir. Bu baxımdan Bakı Dövlət Universiteti kimi ali təhsil müəssisələri xüsusi rol oynayır. Universitetlər: elmi bilik istehsal edir, hüquqi mövqeni intellektual əsaslarla möhkəmləndirir, beynəlxalq akademik şəbəkələrə çıxışı təmin edir. Qərbi Azərbaycan mövzusunun elmi dövriyyədə olması hüquqi prosesin davamlılığını və legitimliyini gücləndirir.

***Hüquqi proses və siyasi məsuliyyət.*** Hüquqi müstəvidə aparılan işlər siyasi məsuliyyətdən kənar deyil. Əksinə, hüquqi yanaşma siyasi qərarların daha rasional və əsaslandırılmış şəkildə qəbul edilməsinə şərait yaradır. Qərbi Azərbaycan məsələsində hüquqi mövqenin möhkəmlənməsi: regional sülh təşəbbüslərinə zidd deyil, qarşıdurmanı təşviq etmir, beynəlxalq hüquqa əsaslanan dialoqa xidmət edir. Bu isə göstərir ki, hüquqi müstəvidə davam edən proses konflikt yox, sülh yönümlü strategiyadır.

Beləliklə, Qərbi Azərbaycan məsələsi artıq bağlanmış tarix deyil. Bu, açıq qalan hüquqi məsələdir. Hüquqi müstəvidə davam edən proses: yaddaşın unudulmasını, ədalətin gec də olsa tələb edilməsini, gələcək nəsillər üçün hüquqi əsasların qorunmasını təmin edir. “Böyük yolun davamı” məhz bu mənada tarixi şüar deyil, düşünülmüş, ardıcıl və hüquqa əsaslanan milli strategiyadır. Bu yol uzun ola bilər, lakin hüquqa söykəndiyi üçün dayanıqlıdır və perspektivlidir.

***Universitetlərin və elmi ictimaiyyətin məsuliyyəti***

Bu prosesdə Bakı Dövlət Universiteti kimi ali təhsil ocaqlarının rolu xüsusi vurğulanmalıdır. Universitetlər: tarixi faktların elmi əsaslarla araşdırılmasını, saxtalaşdırmalara akademik cavab verilməsini, beynəlxalq elmi müzakirələrə çıxışı təmin edən əsas platformalardır.

Qərbi Azərbaycan mövzusu: dərsliklərdə, magistr və doktorantura tədqiqatlarında, beynəlxalq elmi jurnallarda davamlı şəkildə yer almalıdır. Bu, təkcə tarixçilərin deyil, siyasi alimlərin, hüquqşünasların, sosioloqların, psixoloqların da tədqiqat mövzusudur.

***Psixoloji ölçü: deportasiyanın görünməyən izi.*** Deportasiya təkcə fiziki məkan itkisi deyil. Bu, kollektiv travmadır. Qərbi Azərbaycandan qovulan nəsillərin yaddaşında: itirilmiş ev, yarımçıq qalmış həyat, susdurulmuş xatirələr yaşamaqdadır. Bu travmanın sağaldılması üçün: yaddaşın bərpası, tarixi ədalətin tanınması, qayıdış perspektivinin saxlanılması vacibdir. Əks halda, sülh dayanıqlı ola bilməz.

***Nəticə:*** Böyük yol hara aparır? “Böyük yolun davamı” bizi: münaqişəyə deyil, revanşizmə deyil, nifrətə deyil, ədalətə, hüquqa və tarixi barışığa aparmalıdır. Bu yol çətin ola bilər, uzun ola bilər. Amma bu yol haqlıdır. Tarix isə göstərir ki, haqlı yol gec-tez nəticə verir. Qərbi Azərbaycan məsələsi keçmişin hayqırtısı deyil.

Bu, gələcəyin hüquqi və siyasi tələbatıdır.

***Gülgün Quliyeva,***
*Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin müəllimi*

# BDU-da qayıdış hüququna dair təlimlər başlayıb

***Yanvarın 26-da Azərbaycan Respublikası Gənclər Fondunun maliyyə dəstəyi, BDU və “Bir Könüllü” Tələbələrin Əməkdaşlığı İctimai Birliyinin birgə təşkilatçılığı ilə həyata keçirilən “Qayıdış hüququ: hüquqi simulyasiya və debat forumu” fərdi qrant layihəsi çərçivəsində ilk təlim olub.***

Layihə rəhbəri Əli Süleymanov layihənin məqsəd və vəzifələri, əsas fəaliyyət istiqamətləri, hüquqi simulyasiya və debat formatının gənclərin hüquqi biliklərinin artırılması, analitik düşüncə və natiqlik bacarıqlarının inkişafında oynadığı rol haqqında ətraflı məlumat verib.

Təlim siyasi elmlər üzrə fəlsəfə doktoru, BDU-nun müəllimi Gülgün Quliyevanın təqdimatı ilə davam edib. Təlim zamanı Qərbi Azərbaycanın tarixi reallıqları, regionun ictimai-siyasi yaddaşda yeri, mövzuya elmi yanaşmanın əhəmiyyəti və gənclərin bu istiqamətdə maarifləndirilməsinin vacibliyi diqqətə çatdırılıb. Gülgün Quliyeva tarixi faktların düzgün təhlilinin hüquqi müzakirələrdə əsaslandırılmış mövqelərin formalaşdırılmasına birbaşa təsir etdiyini vurğulayıb.

BDU-nun Qərbi Azərbaycan Araşdırmaları Mərkəzinin direktoru, siyasi elmlər doktoru Xalid Niyazov isə “Qayıdış” konsepsiyasının formalaşması və ictimai-siyasi düşüncədə dərinləşməsi baxımından mühüm məqamları diqqətə çatdırıb. Xalid Niyazov konsepsiyanın üçillik inkişaf proqramı çərçivəsində keçdiyi mərhələlər, institusional yanaşmalar və gənclərin bu prosesdə rolu barədə ətraflı məlumat verib. Qayıdış hüququnun beynəlxalq hüquq müstəvisində yeri, hüquqi arqumentlərin formalaşdırılması və debat-simulyasiya proseslərində istifadə olunan əsas metodlar barədə praktiki izahlar təqdim edib.

# Azərbaycanın D-8-ə üzvlüyü qlobal əməkdaşlığa çevrilir

*D-8 ölkələri birlikdə bir milyarddan çox insanı və sürətlə inkişaf edən bir sıra iqtisadiyyatları təmsil edir. Azərbaycanın üzvlüyü təşkilatın təxminən otuz il əvvəl yaradılmasından bəri ilk genişlənməni ifadə edir.*

***Dekabrın 19-da Misirin Qahirə şəhərində keçirilən 11-ci Zirvə Görüşündə Azərbaycanın D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının yekdilliklə üzv qəbul edilməsi, ölkənin beynəlxalq arenada diplomatik uğurlarını gücləndirən əhəmiyyətli bir hadisə idi.*** Azərbaycanın Türkiyə ilə strateji tərəfdaşlığını daha da gücləndirən bu addımın ölkələr arasında hərbi, iqtisadi, diplomatik və mədəni inteqrasiyanı sürətləndirəcəyini vəd edir. Azərbaycanın D-8 üzvlüyünün qlobal əhatə dairəsini və iqtisadi inkişafını necə gücləndirdiyi, eləcə də regional təhlükəsizlik və əməkdaşlıq baxımından əhəmiyyəti təbii ki, görəceyi işlərdə vurğulanır. "Bir millət, iki dövlət" prinsipi əsasında Azərbaycan-Türkiyə münasibətlərinin inkişafını və D-8-in gələcək rolunu anlamaq üçün böyük əhəmiyyət kəsb edir. Bundan əlavə, Azərbaycanın D-8-ə üzvlüyü regional inteqrasiya və qlobal əməkdaşlıq baxımından yeni imkanlar yaradır. D-8-in regional təhlükəsizliyə və iqtisadi inkişafa gələcək təsirini aydın şəkildə ortaya qoyur.

D-8 yarandığı gündən bəri ilk dəfə yeni üzv qəbul etməklə genişlənmiş və dünya müsəlman əhalisinin 60%-ni təşkil edərək, əhəmiyyətli iqtisadi potensiala malik olan üzvlüyünə Azərbaycanın da daxil olmasıonun beynəlxalq arenada artan nüfuzunun və ona göstərilən etimadın bariz nümunəsidir. Azərbaycan D-8-in fundamental prinsiplərinin qorunmasında, təşkilat daxilində əməkdaşlığın dərinləşdirilməsində mühüm rol oynayayır. Bölgəmizdə təhlükəsizlik, sabitlik, rifah və qarşılıqlı faydalı əməkdaşlığın qurulması, iqtisadi və ticarət, nəqliyyat, kommunikasiya və bir çox digər vacib sahələrdə əlaqələrin inkişafı böyük əhəmiyyət kəsb edir. Şərq və Qərb arasında körpü rolunu oynayan və İslam dünyasının əsas mədəni, dini və sivilizasiya mərkəzlərindən biri olan Azərbaycan D-8-ə üzvlüyü ilə İslam həmrəyliyinin gücləndirilməsinə, dünyada İslam dəyərlərinin təşviqinə və İslamofobiya ilə mübarizəyə böyük töhfələr verir.

Qeyd edək ki, D-8 Təşkilatı 15 iyun 1997-ci ildə İstanbulda yaradılıb. Türkiyə ilə yanaşı, Banqladeş, Misir, İndoneziya, İran, Malayziya, Nigeriya və Pakistan üzv ölkələrdir. Bütün üzvləri İslam Əməkdaşlıq Təşkilatının (İƏT) üzvü olan D-8 ölkələrinin ümumi əhalisi təxminən 1,2 milyard, xarici ticarət həcmi isə 2,3 trilyon dollardır ki, bu da qlobal ticarətin təxminən 5%-ni təşkil edir. Təşkilatın əsas məqsədi inkişaf etməkdə olan ölkələrin dünya iqtisadiyyatındakı mövqeyini yaxşılaşdırmaq, ticarət münasibətlərini şaxələndirmək, üzv ölkələr üçün ticarət sahəsində yeni imkanlar yaratmaq və beynəlxalq qərar qəbuletmə mexanizmlərində güclü iştirakını təmin etməkdir.

D-8 ölkələri birlikdə bir milyarddan çox insanı və sürətlə inkişaf edən bir sıra iqtisadiyyatları təmsil edir. Azərbaycanın üzvlüyü təşkilatın təxminən otuz il əvvəl yaradılmasından bəri ilk genişlənməni ifadə edir. D-8 münaqişə əvəzinə sülh, qarşıdurma əvəzinə dialoq, istismar əvəzinə əməkdaşlıq, ikili standartlar əvəzinə ədalət, ayrı-seçkilik əvəzinə bərabərlik, zülm əvəzinə demokratiya prinsiplərinə əsaslanır. D-8-in əsas fəaliyyət sahələri ticarət, kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi, sənaye, enerji, nəqliyyat və əlaqə sahələridir, eyni zamanda səhiyyə və turizm sahələrində də işlərini davam etdirilir.

2025-ci ilin martında Azərbaycan D-8 təşkilatına tamhüquqlu üzv kimi qoşulduqdan sonra İqtisadi Əməkdaşlıq Təşkilatı ilə əlaqələrunu daha da dərinləşdirməyə başlayıb. Eləhəmin ilin sonunda Azərbaycanda keçirilən D-8 Media Forumda iqtisadi müzakirələr, əsasən, əhalisinin çoxu müsəlmanlardan ibarət inkişaf etməkdə olan ölkələr üçün koordinasiya edilmiş platforma rolunu oynayan təşkilata yeni üzvülüyü blokla tam şəkildə inteqrasiya üçün bir sıra təşəbbüslərin irəli sürülməsi ilə yadda qaldı. Forumun yekunu olaraq Media Mükəmməllik Mərkəzinin yaradılması və dezinformasiya ilə mübarizə üçün yeni strategiyaların hazırlanması kimi mühüm nəticələrin əldə edildiyinə diqqət çəkildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına veriyi müsahibəsində: "... biz D-8 təşkilatına üzv olduq. Mən bunu da çox böyük nailiyyət kimi qiymətləndirirəm. Çünki bu təşkilat 30 ilə yaxındır ki, yaradılmışdır və yarandığı gündən yeni üzv qəbul etməmişdir. Ona görə bu günə qədər adı da D-8-dir. Yeganə yeni üzv Azərbaycan olmuşdur. Nəzərə alsaq ki, bu təşkilatda müsəlman dünyasının ən böyük ölkələri birləşir, Azərbaycanı dəvət etmək və bizi seçmək, əgər belə demək mümkündürsə, əlbəttə ki, böyük uğur sayıla bilər. Təkcə onu demək kifayətdir ki, bu təşkilatda birləşən ölkələrin ümumi əhalisi bir milyarddan, ümumi iqtisadiyyatı dörd trilyondan çoxdur. Azərbaycan nə əhali, nə iqtisadiyyat baxımından böyük ölkə sayıla bilməz. Bizim orada artıq rəsmən iştirakımız, əlbəttə ki, bizə olan hörmətin əlamətidir və bizim apardığımız müstəqil siyasətin nəticəsidir və dərhal biz fəal işlərə başladıq. Bizim təşəbbüsümüzlə Azərbaycanda təşkilatın bir neçə mərkəzi yaradılmışdır - media, iqlim, ekologiya, energetika, nəqliyyat və biz də təbii ki, bu təşkilatda fəal üzv kimi iştirak edəcəyik"- fikri dövlət başçısının bu təşkilata daha çox önəm verdiyinin bariz nümunəsidir.

***Afaq Sadıqova,***
*Jurnalistika fakültəsinin elmi işçisi*

# BDU 2025-ci ildə beynəlxalq akademik və elmi əməkdaşlıq sahələrində mövqelərini gücləndirib

***2025-ci il ərzində BDU beynəlxalq əlaqələrin inkişafını strateji prioritet kimi müəyyən edərək, müxtəlif ölkələrin aparıcı ali təhsil müəssisələri və nüfuzlu beynəlxalq qurumları ilə əməkdaşlığını həm tədris, həm də elmi-tədqiqat sahələri üzrə genişləndirib. Bu əməkdaşlıqlar Universitetin qlobal akademik məkanda mövqeyinin möhkəmlənməsinə, elmin beynəlmiləlləşdirilməsinə və innovativ bilik istehsalının təşviqinə xidmət edib.***

Beynəlxalq əməkdaşlığın mühüm nəticələrindən biri kimi BDU "Sustainability Impact Network" və Beynəlxalq Dayanıqlı Kampus Şəbəkəsi (International Sustainable Campus Network- ISCN) kimi nüfuzlu beynəlxalq təşkilatlara üzv qəbul olunub. Bu üzvlük Universitetin dayanıqlı inkişaf, "yaşıl universitet" modeli və elmi məsuliyyət prinsipləri üzrə qlobal təşəbbüslərə qoşulmasını təmin etməklə yanaşı, BDU-nun beynəlxalq elmi platformalarda tanınmasını daha da artırıb.

İl ərzində imzalanmış əməkdaşlıq müqavilələri çərçivəsində Bakı Dövlət Universiteti ilə tərəfdaş xarici universitetlər arasında birgə elmi tədqiqatların aparılması, akademik heyətin qarşılıqlı səfərləri, elmi seminar və konfransların təşkili, eləcə də elmi nəşrlər sahəsində əməkdaşlığın genişləndirilməsi istiqamətində ardıcıl addımlar atılıb. Bu proses Universitetin elmi potensialının beynəlxalq standartlara uyğun inkişafına və tədqiqat nəticələrinin qlobal elmi ictimaiyyətə inteqrasiyasına imkan yaradıb.

Beynəlxalq elmi əməkdaşlığın inkişafı çərçivəsində BDU alimləri xarici tərəfdaşlarla birlikdə prioritet elmi istiqamətlər üzrə tədqiqat layihələrində iştirak edir, müasir laboratoriya infrastrukturu və qabaqcıl elmi metodologiyalara çıxış imkanlarını genişləndirirlər. Bu əməkdaşlıq elmi nəticələrin beynəlxalq nüfuzlu jurnallarda dərc olunmasına, elmi bilik mübadiləsinin intensivləşməsinə və gənc tədqiqatçıların qlobal elmi mühitə inteqrasiyasına xidmət edir.

Akademik əməkdaşlıqla yanaşı, tələbəyönümlü beynəlmiləlləşmə siyasəti də davam etdirilib. Mübadilə və ikili diplom proqramları çərçivəsində tələbələr beynəlxalq akademik mühitdə təhsil almaq, fərqli elmi məktəblərlə tanış olmaq imkanı əldə ediblər.

Beynəlxalq əməkdaşlığın mühüm istiqamətlərindən biri kimi Çin Xalq Respublikasının Anhui Universiteti ilə "Optoelektronika", "Yarımkeçirici cihazlar və texnologiyalar" və "Mikroelektronika və nanoelektronika" sahələri üzrə ikili magistr dərəcələrinin verilməsini nəzərdə tutan müqavilə imzalanıb. Bu əməkdaşlıq yalnız tədris deyil, eyni zamanda müvafiq sahələr üzrə birgə elmi tədqiqatların aparılmasını və elmi kadr hazırlığının gücləndirilməsini də əhatə edir.

Eyni zamanda, BDU tələbələri Qazaxıstanın Satbayev adına Milli Tədqiqat Texniki Universiteti, İsrailin Holon Texnologiya İnstitutu və Çinin Anhui Universiteti ilə həyata keçirilən ikili diplom proqramları çərçivəsində müxtəlif elmi və akademik mühitlərdə təhsil alaraq beynəlxalq tədqiqat təcrübəsi qazanırlar.

Ümumilikdə, 2025-ci ildə Bakı Dövlət Universitetinin beynəlxalq akademik və elmi əməkdaşlıq sahəsində əldə etdiyi nailiyyətlər Universitetin elmi-tədqiqat potensialının gücləndirilməsinə, təhsil keyfiyyətinin yüksəldilməsinə və BDU-nun dünya ali təhsil və elm məkanında nüfuzunun artırılmasına xidmət edir. Universitet qarşıdakı dövrdə də beynəlxalq elmi tərəfdaşlıqları genişləndirərək, qlobal bilik istehsalının fəal iştirakçısı olmağı hədəfləyir.

# Karyera və məzunlarla iş Mərkəzi və "Dapti.az" platformasının nümayəndələri arasında görüş

***Yanvarın 26-da BDU-nun Karyera və məzunlarla iş Mərkəzinin əməkdaşları ilə "Dapti.az" platformasının nümayəndələri arasında görüş keçirilib. Görüşdə BDU-nun Karyera planlaşdırılması şöbəsinin müdiri Günel Qurbanova, baş mütəxəssis İlkin Şərifov, "Dapti.az" platformasının baş icraçı direktoru İlkin Kərimli və baş əməliyyat direktoru Ayxan Cavanşirli iştirak ediblər.***

Günel Qurbanova və İlkin Şərifov çıxışlarında Karyera və məzunlarla iş Mərkəzinin fəaliyyət istiqamətləri, həyata keçirilən layihələr, tələbə və məzunlara göstərilən karyera yönümlü xidmətlər barədə ətraflı məlumat veriblər. Onlar vurğulayıblar ki, müasir əmək bazarının tələbləri ali təhsil müəssisələrində yalnız nəzəri biliklərin deyil, rəqəmsal bacarıqların, analitik düşüncənin və texnoloji savadlılığın formalaşdırılmasını zəruri edir. Bu baxımdan süni intellekt və rəqəmsal platformaların tədris prosesinə inteqrasiyası tələbələrin peşəkar inkişafında mühüm rol oynaya bilər.

"Dapti.az" platformasının nümayəndələri İlkin Kərimli və Ayxan Cavanşirli isə çıxışlarında platformanın fəaliyyət məqsədləri və texnoloji imkanları barədə məlumat veriblər. Qeyd olunub ki, Dapti.az müəllimlərin pedaqoji fəaliyyətinin daha sistemli, ölçülə bilən və analitik əsaslarla təşkili, eyni zamanda müəllim ixtisası üzrə təhsil alan gə nclərin müasir texnoloji alətlərlə işləmə bacarıqlarının inkişaf etdirilməsi məqsədini daşıyır.

Görüş çərçivəsində tərəflər arasında mümkün əməkdaşlıq istiqamətləri, birgə pilot layihələrin icrası, tələbələr üçün təlim və təcrübə imkanlarının yaradılması məsələləri müzakirə olunub və gələcəkdə konkret əməkdaşlıq mexanizmlərinin müəyyənləşdirilməsi barədə razılıq əldə edilib.

# BDU-da "Güclü dövlətin təməli - Azərbaycan gəncliyi" adlı forum keçirilib

***Yanvarın 28-də BDU və Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə 2 Fevral – Azərbaycan Gəncləri Gününə həsr olunmuş Ümummilli Lider Heydər Əliyevin gənclər siyasəti və Prezident İlham Əliyevin gələcəyə strateji baxışı kontekstində "Güclü dövlətin təməli - Azərbaycan gəncliyi" adlı forum keçirilib.***

Forumdan əvvəl gənclər və könüllü təşkilatlarının, gənclər evlərinin təcrübə və könüllülük proqramlarının sərgisinə baxış olub.

Forumun açılış mərasimində Dövlət himni səsləndirilib, torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra dövlət gənclər siyasətinə dair Gənclər və İdman Nazirliyinin hazırladığı videoçarx nümayiş olunub.



Forumun açılış mərasimində çıxış edən BDU rektoru Elçin Babayev bildirib ki, 2 Fevral - Azərbaycan Gəncləri Günü ölkəmizin ictimai-siyasi həyatında xüsusi yer tutur. Bu əlamətdar gün gənclərə daim böyük diqqət və qayğı göstərmiş, müasir dövlət gənclər siyasətinin əsasını qoymuş Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. 29 il əvvəl Ulu Öndərin imzaladığı Fərmanla fevralın 2-si MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq məhz Azərbaycanda Gənclər Günü kimi təqvimə daxil edilib. Ümummilli Liderin uzaqgörən siyasəti nəticəsində dövlətimizin gənclər siyasətinin möhkəm qanunvericilik bazası formalaşdırılıb, gənclərin sosial, iqtisadi, təhsil və digər problemlərinin həllinə yönəlmiş çoxsaylı fərman və sərəncamlar, dövlət proqramları qəbul edilib. Bu sənədlər gənclərin cəmiyyətdə mütəşəkkil qüvvəyə çevrilməsində, ictimai fəallığının yüksəldilməsində, dövlət idarəçiliyinə cəlb olunmasında və faydalı məşğulluğunun təmin edilməsində mühüm rol oynayıb. Bu siyasət Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə uğurla davam və inkişaf etdirilir: "Gənc nəslin təhsili və mənəvi inkişafı, vətənpərvərlik ruhunda tərbiyəsi, dövlətə və xalqa sədaqət prinsipləri əsasında formalaşdırılması, hərtərəfli sosial müdafiəsinin təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlər bunun bariz nümunəsidir. Hazırda ölkəmizdə bakalavr və magistr hazırlığı həyata keçirən dövlət və özəl ali təhsil müəssisələrində 200 mindən, 60-dan çox orta ixtisas təhsil müəssisəsində isə 60 mindən artıq gənc təhsil alır. "2022–2026-cı illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində minlərlə gənc dünyanın ən nüfuzlu ali təhsil ocaqlarında bilik və təcrübə qazanır. Müxtəlif elm sahələrində uğurla elmi araşdırmalar aparan, elmi dərəcə və elmi adlar alan gənclərimizin sayı ildən-ilə artmaqdadır. Dövlətimizin gənclər siyasətində sağlam həyat tərzinin təbliği, idmanın inkişafı və onun kütləviliyinin təmin edilməsi xüsusi yer tutur. Son illərdə nüfuzlu beynəlxalq idman yarışlarına uğurla ev sahibliyi edən Azərbaycanın gənc idmançıları Olimpiya Oyunlarında, dünya və Avropa çempionatlarında yüksək nəticələr əldə edərək, ölkəmizin idman şöhrətini dünyaya tanıdırlar. Ölkəmizdə keçirilən beynəlxalq mədəniyyət və idman müsabiqələri, dünya miqyaslı tədbirlər müstəqil Azərbaycan tarixinin ən parlaq səhifələrindəndir. Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiq edilmiş "2015–2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nda gənclərin təhsili, məşğulluğu, yaradıcılıq və innovativ potensialının inkişafı, informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə bacarıqlarının artırılması və könüllülük hərəkatının genişləndirilməsi əsas prioritetlər kimi müəyyən olunub. Strategiya müvəffəqiyyətlə icra olunub, bir çox uğurlar əldə edilib. 44 günlük Vətən müharibəsi gənclərimiz üçün əsl vətənpərvərlik məktəbi olub. Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında şanlı Ordumuzun sıralarında döyüşən gənclərimizin qəhrəmanlığı daim xatırlanacaq. Hazırda Azərbaycan gəncliyi təkcə keçmişin qəhrəmanı deyil, postmüharibə dövrünün qurucusu kimi çıxış edir. Azad edilmiş ərazilərin yenidən qurulması və dirçəldilməsi prosesində gənclərimizin bilik və bacarıqları xüsusi əhəmiyyət daşıyır".

Rektor qeyd edib ki, BDU təkcə ölkəmizin ilk ali təhsil müəssisəsi deyil, Azərbaycan gəncliyinin formalaşmasında, intellektual və vətəndaş mövqeyinin yetişməsində aparıcı rol oynayan elm və düşüncə mərkəzi, dövlətimizin gənclər siyasətinin həyata keçirildiyi əsas platformalardan biridir. Universitet mühiti tələbələrin elmə, yaradıcılığa və ictimai həyata fəal qoşulması üçün geniş imkanlar yaradır. BDU-da fəaliyyət göstərən Tələbə Gənclər Təşkilatı, Tələbə Həmkarlar İttifaqı Komitəsi, "BDU könüllüləri" Təşkilatı, Tələbə Elmi Cəmiyyəti kimi tələbə təşkilatları, Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzi, mədəniyyət və idman mərkəzləri gənclərin potensialının üzə çıxarılmasında mühüm rol oynayır. BDU tələbələri ölkəmizdə keçirilən beynəlxalq tədbirlərdə, sosial layihələrdə və könüllülük fəaliyyətində xüsusi fəallıqları ilə seçilirlər. Bu gün ölkəmizin ən aparıcı könüllü təşkilatlarının üzvlərinin böyük əksəriyyəti BDU tələbələridir. "BDU könüllüləri" təşkilatı ölkənin ən dinamik və fəal könüllü təşkilatlarından biridir.

Gənclər və idman naziri Fərid Qayıbov Ümummilli Lider Heydər Əliyevin banisi olduğu dövlət gənclər siyasətinin uğurla icra olunduğunu bildirib. O qeyd edib ki, 1994-cü ildə Azərbaycanda Gənclər və İdman Nazirliyi yaradılıb, həmin ildən etibarən gənclərin inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Gənclərin ictimai-siyasi həyatda fəal iştirakının təmin edilməsi, onların bilik və bacarıqlarının artırılması məqsədilə müxtəlif dövlət proqramları icra olunur, Azərbaycanda Gənclər Fondu yaradılıb. Prezident İlham Əliyev tərəfindən gənclərə böyük diqqət və qayğı var. Gənclərin inkişafı, dövlət idarəçiliyində irəli çəkilməsi üçün "Yüksəliş" müsabiqəsi icra olunur və minlərlə gənc bundan faydalanır. Hazırda Azərbaycanda 300-dən artıq gənclər təşkilatı fəaliyyət göstərir. Son illər ərzində paytaxtda və ölkənin müxtəlif şəhərlərində beynəlxalq təşkilatlarla birgə gənclər forumları təşkil edilir. Bu tədbirlər gənclərin təcrübə mübadiləsi aparmasına, yeni ideyalar əldə etməsinə və beynəlxalq əməkdaşlığın genişlənməsinə geniş imkanlar yaradır: "Güclü dövlət güclü gənclər deməkdir. İnanıram ki, Azərbaycan gəncliyi ölkənin gələcək inkişafında mühüm rol oynayaraq, dövlətimizin daha da qüdrətlənməsinə töhfə verəcək".

Gənclər Fondunun icraçı direktoru vəzifəsini icra edən Yusif Vəliyev bildirib ki, Azərbaycan Gəncləri Günü ölkənin gələcəyini inkişaf etdirəcək bir nəslin bayramıdır. Bu gün həm də Azərbaycan dövlətinin gənclərə olan inamının, ümidinin və dəstəyinin rəmzi kimi qiymətləndirilir. O, BDU-nun ölkə üçün peşəkar kadrların hazırlanmasında mühüm rol oynadığını diqqətə çatdırıb. Bildirib ki, Universitetin məzunları dövlət idarəçiliyində, bütün sahələrdə uğurla fəaliyyət göstərirlər.

Prezident mükafatçısı, BDU məzunu Günay İmanzadə, Prezident təqaüdçüsü, BDU-nun 2025/2026-cı il üzrə ən yüksək balla qəbul olmuş tələbəsi Çiçək Hümmətli çıxışlarında uğur hekayələrini bölüşüb, Azərbaycan dövlətinin gənclər üçün yaratdığı şəraitin digər ölkələr üçün nümunə olduğunu vurğulayıb, Forumun işinə uğurlar arzulayıblar.

Sonra BDU-nun "İlin gənc alimi" müsabiqəsinin nəticələri elan olunub. Universitetin ictimai həyatında fəal iştirak edən bir sıra tələbələrə, BDU-nun gənclər təşkilatlarının üzvlərinə təşəkkürnamələr təqdim edilib.

BDU-nun Mədəniyyət-Yaradıcılıq Mərkəzinin Azərbaycan Gəncləri Günü münasibətilə hazırladığı bədii kompozisiya nümayiş olunub.

Tədbir "Dövlətçilik, təhsil və elm: Azərbaycan gəncliyinin strateji missiyası" mövzusunda panel müzakirə ilə davam edib.

# BDU-da gender bərabərliyinə həsr olunmuş elmi seminar

***Yanvarın 29-da Sosial elmlər və psixologiya fakültəsinin təşkilatçılığı ilə "Gender bərabərliyi: problemlər və perspektivlər" mövzusunda elmi seminar keçirilib.***

*Qadınların sülhməramlı fəaliyyətlərə cəlb olunması münaqişə zonalarında yerli əhali ilə daha effektiv ünsiyyətin qurulmasına, etimad mühitinin formalaşmasına və dayanıqlı sülhün təmin olunmasına müsbət təsir göstərir.*

Seminarda BDU-nun Gender və tətbiqi psixologiya kafedrasının müdiri Rəna İbrahimbəyova məruzə ilə çıxış edib.

Sosial elmlər və psixologiya fakültəsinin dekanı Rövşən Cavadov gender mövzusunun müasir dövrdə müxtəlif aspektlərdən araşdırılmasının vacibliyini qeyd edib. O, gender bərabərliyinin cəmiyyətin bütün sahələrində aktual olduğunu vurğulayıb.

Gender və tətbiqi psixologiya kafedrasının müdiri Rəna İbrahimbəyova məruzəsində BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərində (DİM) gender bərabərliyinin bütün digər məqsədlərin ayrılmaz tərkib hissəsi olduğunu qeyd edib. O bildirib ki, gender bərabərliyi sülh, təhlükəsizlik, keyfiyyətli təhsil və sosial rifah kimi sahələrdə mühüm rol oynayır. Bu baxımdan BMT-nin sülhməramlı missiyalarında qadınların iştirakının artırılması xüsusi əhəmiyyət daşıyır. Qadınların sülhməramlı fəaliyyətlərə cəlb olunması münaqişə zonalarında yerli əhali ilə daha effektiv ünsiyyətin qurulmasına, etimad mühitinin formalaşmasına və dayanıqlı sülhün təmin olunmasına müsbət təsir göstərir.

Məruzəçi dünya təcrübəsində toxunaraq hüquq müdafiə və mühafizə orqanlarında qadınların təmsilçilik səviyyəsindən danışıb. O qeyd edib ki, son illər Azərbaycanda bu sahədə çalışan qadınların sayı artmaqdadır və qadınlar hüquq-mühafizə sistemində müxtəlif vəzifələrdə uğurla təmsil olunurlar.

Rəna İbrahimbəyova məruzəsində gender bərabərliyinin incəsənətdə də özünü göstərdiyini diqqətə çatdırıb. O, məşhur holland rəssamı Maurits Kornelis Eşerin "Vəhdət bağları" adlı rəsm əsərini gender əsaslı təhlil edərək bildirib ki, əsərdə bir-birinə lentlə bağlanan iki başın hansı cinsə aid olduğunu asanlıqla müəyyən etmək mümkündür. Lakin əsas məqam onların cinsində deyil, bərabər şəkildə təsvir olunmasındadır. Məruzəçi vurğulayıb ki, hər iki varlıq eyni formada, eyni dəyər və mövqedə təqdim olunaraq gender bərabərliyinin simvolik ifadəsini yaradır.

Seminarın sonunda mövzu ətrafında geniş müzakirələr aparılıb, iştirakçıların sualları cavablandırılıb. Tədbirin yekununda Rəna İbrahimbəyova BDU-nun mühafizə xidmətində çalışan qadın əməkdaşlara göstərdikləri fəaliyyətə görə təşəkkür edərək onlara hədiyyələr təqdim edib.

# BDU-da "Aqrar sığorta" fənninin tədrisinə başlanılıb

***Biologiya fakültəsinin magistratura pilləsində 2025–2026-cı tədris ilindən "Aqrar sığorta" fənninin tədrisinə başlanılıb.***

"Aqrar sığorta" fənni çərçivəsində tələbələr müxtəlif təbiət hadisələri və digər amillərin əkin sahələri üçün yaratdığı risklər, həmin risklərin qiymətləndirilməsi, sığorta hadisələrinin araşdırılması və zərərin hesablanması metodikalarını mənimsəyirlər.

Qeyd edək ki, Azərbaycanda dövlət dəstəyi ilə təqdim olunan aqrar sığorta mexanizmində sığorta hadisələrinin araşdırılması və zərərlərin düzgün hesablanması mühüm əhəmiyyət daşıyır. Zərər çəkmiş təsərrüfatlara sığorta ödənişləri məhz bu hesablamalar əsasında müəyyən edilir.

BDU-da "Aqrar sığorta" fənninin tədrisinə həsr olunmuş açıq dərsdə Biologiya fakültəsinin dekanı, biologiya elmləri doktoru, professor Afət Məmmədova dünyada baş verən iqlim dəyişikliklərinin təbiətə və aqrar sahəyə təsirinə diqqət çəkib. O bildirib ki, təbiət risklərinin düzgün qiymətləndirilməsi kənd təsərrüfatı üçün olduqca vacibdir. Professorun sözlərinə görə, bu fənnin tədrisi fakültə məzunlarının əlavə biliklər əldə etməsinə, onların ixtisas imkanlarının genişlənməsinə və biliklərinin praktik sahələrdə tətbiqinə şərait yaradacaq.



Fənnin bilavasitə tədrisi ilə məşğul olan tanınmış mütəxəssis, müstəqil aqrar sığorta eksperti Zülfü Məmmədov ölkəmizdə tətbiq edilən aqrar sığorta mexanizmi, onun üstünlükləri və kənd təsərrüfatı üçün əhəmiyyəti barədə məlumat verib. Ekspert qeyd edib ki, son illər iqlim dəyişiklikləri səbəbindən dolu, şiddətli küləklər, quraqlıq və digər təbiət hadisələrinin sayı əhəmiyyətli dərəcədə artıb. Belə şəraitdə bitkilərə və əkin sahələrinə dəyən zərərin düzgün qiymətləndirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Açıq dərsdə BDU-nun Biologiya fakültəsinin magistr tələbəsi Aysun Əsədlinin "Məhsuldarlığın təyini metodikası" mövzusunda təqdimatı dinlənilib. Təqdimatda bitki zərərlərinin araşdırılması zamanı görüləcək tədbirlər, onların ardıcıllığı, diqqət yetirilməli əsas məqamlar və digər vacib məsələlər ətraflı izah olunub.

Qeyd edək ki, BDU-da aqrar sığortaya dair sözügedən fənnin gələcəkdə bakalavr pilləsində də tədrisi nəzərdə tutulur. Bu addım ölkənin aparıcı elm ocaqlarından biri olan BDU-da müvafiq ixtisaslar üzrə təhsil alan tələbələrin bilik və bacarıqlarının artırılmasına, onların praktiki təcrübə qazanmasına və aqrar sığorta sistemində fəal iştirakına geniş imkanlar yaradacaq.

# BDU Elmi Şurasının yeni ildə ilk iclası

***Yanvarın 22-də Bakı Dövlət Universitetinin Elmi Şurasının yeni ildə ilk iclası keçirilib.***

İclasda bakalavriat və magistratura təhsil səviyyələri üzrə 2025/2026-cı tədris ilinin payız semestrinin imtahan sessiyasının gedişi müzakirə olunub, bir sıra struktur dəyişikliklərinə baxılıb.

Daha sonra isə cari məsələlər müzakirə edilib.



# BDU tələbələri elmi tədqiqatlarda aktiv iştirak edirlər

***Elmi yenilikləri və innovasiyaları tədris prosesinə tətbiq etməklə "təhsil-elm-istehsalat" formatında fəaliyyət göstərmək, tələbələrdə tədqiqatçılıq vərdişlərinin formalaşdırmaq, beynəlxalq əməkdaşlığı yeni müstəviyə yüksəltmək, dünyanın tanınmış ali təhsil müəssisələri ilə tələbə-müəllim mübadiləsi həyata keçirmək, elmi nəticələri istehsalatda tətbiq etmək, ölkənin və cəmiyyətin sosial-iqtisadi problemlərinin həllində iştirak edən "Tədqiqat Universiteti"nə çevrilmək BDU-nun gələcəyə baxışının əsas tərkib hissəsini təşkil edir.***

Bu gün BDU tələbələri elmi seminar və konfranslarda məruzələrlə çıxış edir, elmi-tədqiqat mövzuları üzrə tədqiqatlara cəlb olunur. Tədris prosesində tələbələrə alınmış elmi nəticələr haqqında məlumatlar verilir. Təhsil-elmi-tədqiqat ekosistemi tələbələrin bilavasitə elmi-tədqiqat mühitində formalaşmasına, yeni prioritet elmi istiqamətlərdə elmi məktəblərin yaranmasına şərait yaradır.

BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Nanoaraşdırmalar elmi-tədqiqat laboratoriyasında qrafen oksidin (QO) butadien-nitril kauçuku (BNK) əsaslı kompozit materialın struktur, termiki, optik və elektrik xüsusiyyətlərinə təsirinin araşdırılması üzrə aparılan tədqiqatlarda aktiv iştirak edən SABAH qruplarının magistratura səviyyəsinin II kurs tələbələri Lalə İsayeva və Rəşidə Hüseynzadənin həmmüəllifi olduqları "Nitril-butadien kauçuku/qrafen oksid nanokompozitlərinin optimal performansının əldə edilməsində hidrogen rabitəli interfazanın rolu" (The role of hydrogen-bonded interphase in achieving optimal performance of nitrile-butadiene rubber/graphene oxide nanocomposites) adlı məqalə "Scopus" bazasında Q1 kvartilli "Frontiers in Chemistry" jurnalında dərc edilib.

İşdə qrafen oksid modifikasiya edilmiş Hummers metodu ilə sintez olunub və BNK/QO sistemi müxtəlif doldurucu konsentrasiyaların məhlulkoaqulyasiya və ardınca kükürd vulkanizasiyası yolu ilə hazırlanıb.

Müəyyən edilib ki, sistemə 1.0 kütlə hissə qrafen oksidin daxil edilməsi mexaniki və dielektrik xassələrin optimal səviyyədə formalaşmasına şərait yaradır. BNK-nın yağa davamlı elastomer kimi geniş tətbiqi nəzərə alınaraq, əldə olunan nəticələr bu kompozit materialların neft sənayesində tətbiqi baxımından praktik əhəmiyyət daşıyır.

# Biologiya fakültəsində nanohissəciklərin embrional inkişafa təsir mexanizmləri araşdırılır

***Yanvarın 7-də Biologiya fakültəsində "Dəmir nanohissəciklərinin adi çəkinin (Cyprinus carpio L., 1758) daxili orqanlarına və embrional inkişaf mərhələlərinə təsiri" mövzusunda elmi seminar keçirilib.***

Biofizika və biokimya kafedrasının doktorantı Aysel Hacıyeva mövzu ilə bağlı məruzə edib. Təqdimatda akvakultura şəraitində yetişdirilən adi çəkinin nazik bağırsağı və qaraciyərində dəmir oksidi nanohissəciklərinin bioakkumulyasiya xüsusiyyətləri, həmçinin embrional inkişafa təsiri işıq və elektron mikroskopiya üsulları ilə qiymətləndirilib. Aparılan tədqiqatların nəticələri mikrovillilərin dağılması, sitoplazmatik ödem, mitoxondrilər və damar endotelində zədələnmələr kimi mühüm patomorfoloji dəyişikliklərin müşahidə olunduğunu göstərib. Eyni zamanda, nanohissəciklərin enterositlərə, hepatositlərə və eritrositlərə nüfuz edərək müxtəlif toxumalarda sistemli şəkildə toplandığı müəyyən edilib.

Embrional inkişaf üzrə aparılan təcrübələr zamanı isə FeO nanohissəciklərinin 0,001 q miqdarında mayalandırmadan əvvəl spermaya əlavə olunmasının mayalanma faizini və sağlam embrionların çıxışını 12–14 faiz artırdığı qeyd olunub.

Təqdim edilən nəticələr balıqların süni artırılmasının müxtəlif mərhələlərində nanohissəciklərin toksikliyinin qiymətləndirilməsi baxımından əhəmiyyətli olmaqla yanaşı, akvakultura praktikasında tətbiq potensialına malikdir.

Seminar iştirakçıları mövzunun elmi yeniliyini və praktiki əhəmiyyətini vurğulayıb, nanohissəciklərlə bağlı potensial risklərin, eləcə də onların ətraf mühitə və su ekosistemlərinə mümkün təsirlərinin daha dərindən araşdırılmasının vacibliyini qeyd ediblər.

# BDU-da "Nanotexnologiyalar və nanotexnoloji aspektlər" mövzusunda təlim keçirilib



***Yanvarın 12-də BDU-da "BDU könüllüləri" təşkilatı və 5 saylı Bakı "ASAN xidmət" mərkəzinin könüllülərinin birgə əməkdaşlığı çərçivəsində "Nanotexnologiyalar və nanotexnoloji aspektlər" mövzusunda maarifləndirici təlim təşkil olunub.***

Təlimdə BDU-nun Fizika fakültəsinin Nanomaterialların kimyəvi fizikası kafedrasının müəllimi, fizika üzrə fəlsəfə doktoru Həbibə Şirinova nanotexnologiyaların elmi əsasları, bu sahənin yaranma tarixi və müasir inkişaf mərhələləri barədə məlumat verib. O, həmçinin nanotexnologiyaların tibb, mühəndislik, elektronika, materialşünaslıq və digər sahələrdə tətbiq imkanları, eləcə də gələcək inkişaf perspektivlərindən bəhs edib.

Təlim çərçivəsində iştirakçılar BDU-nun "Nanoaraşdırmalar" elmi-tədqiqat laboratoriyasına ekskursiya ediblər. Ekskursiya zamanı laboratoriyada aparılan elmi-tədqiqat işləri, istifadə olunan müasir texnoloji avadanlıqlar və elmi araşdırmaların mərhələləri haqqında ətraflı məlumat verilib.

# BDU-nun nəzdində “Gənc istedadlar” liseyinin şagirdləri Universiteti ziyarət ediblər

***Yanvarın 19-da BDU-nun nəzdində “Gənc istedadlar” liseyinin VII sinif şagirdləri BDU-nu ziyarət ediblər.***

Şagirdlər Heydər Əliyev Muzeyi, Genetika və təkamül muzeyi və “Eko Məkan”da olublar.

Şagirdlərə BDU-dakı ixtisaslar barədə ətraflı məlumat verilib. Bildirilib ki, müasir dövrün tələbləri və karyera imkanları nəzərə alınaraq, tələbələr üçün hər cür şərait yaradılıb. Universitetin müasir tədris metodları, informasiya texnologiyaları sahəsində tətbiq etdiyi yeniliklər, BDU-nun “TEKNOFEST” və “Robotex” komandalarının beynəlxalq uğurları da diqqətə çatdırılıb.



# BDU-nun “İlin gənc alimi” müsabiqəsinin nəticələri açıqlanıb



***Yanvarın 28-də Bakı Dövlət Universitetində 2 Fevral – Azərbaycan Gəncləri Gününə həsr olunmuş “İlin gənc alimi” müsabiqəsinin nəticələri açıqlanıb.***

Müsabiqə Komissiyasının qərarına əsasən, BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Nanoaraşdırmalar elmi-tədqiqat laboratoriyasının elmi işçisi, Nanomaterialların kimyəvi fizikası kafedrasının doktorantı Məhəmməd Bağır Bağırov təbiət-dəqiq və texnika elmləri üzrə “İlin gənc alimi” seçilib, diplom və pul mükafatı ilə təltif olunub.

Qeyd edək ki, BDU artıq altı ildir ki, 2 Fevral – Azərbaycan Gəncləri Günü münasibətilə “İlin gənc alimi” müsabiqəsi elan edir. Müsabiqənin məqsədi BDU-nun yaşı 35-ə qədər, il ərzində aktiv fəaliyyət göstərərək yüksək elmi nəticələrə nail olan magistrant, doktorant və əməkdaşlarının mükafatlandırılmasıdır.

# Prokurorluq orqanlarında qulluğa yeni qəbul edilmiş 51 gənc hüquqşünasın 38-i BDU məzunudur

***Baş Prokurorluq tərəfindən 15 aprel 2025-ci il tarixdə növbəti dəfə elan edilən 27-ci müsabiqənin nəticələri üzrə 51 gənc hüquqşünas qulluğa qəbul olunub. Onlardan 38-i Bakı Dövlət Universitetinin məzunudur.***



Yanvarın 13-də Azərbaycan Respublikasının Baş Prokurorluğunda müsabiqə yolu ilə prokurorluq orqanlarında qulluğa yeni qəbul edilən gənc əməkdaşların andiçmə mərasimi keçirilib. Daha sonra prokurorluqda qulluğa yeni qəbul olunmuş gənclərin vəzifələrə təyin edilməsi barədə əmr elan edilib, işə qəbul olunanlar təntənəli surətdə and içib və onlara xidməti vəsiqələr Baş prokuror tərəfindən təqdim olunub.

Qeyd edək ki, gənc hüquqşünaslar Ümummilli Lider Heydər Əliyevin 19 iyun 2001-ci il tarixli Fərmanı ilə təsdiq edilən "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında Əsasnamə"yə uyğun olaraq qəbul olunur.

# BDU-nun Karyera və məzunlarla iş Mərkəzi ilə “Azersun Holdinq” nümayəndələri arasında görüş

***Yanvarın 28-də BDU-nun Karyera və məzunlarla iş Mərkəzi ilə “Azersun Holdinq” MMC-nin əməkdaşları arasında onlayn formatda görüş keçirilib.***

Görüşdə BDU-nun Karyera planlaşdırılması şöbəsinin karyera planlaşdırılması üzrə məsləhətçisi Pərvanə Babayeva və “Azersun Holdinq” MMC-nin işçi təcrübəsinin idarəolunması üzrə baş mütəxəssisi Nurhan Məcidova iştirak ediblər.

Pərvanə Babayeva BDU-nun Karyera və məzunlarla iş Mərkəzinin fəaliyyət istiqamətləri, həyata keçirilən layihələr, tələbə və məzunlar üçün təşkil olunan tədbirlər, təlimlər və karyera məsləhət xidmətləri barədə ətraflı məlumat verib. O bildirib ki, Mərkəzin əsas məqsədi tələbə və məzunların əmək bazarının tələblərinə uyğun bacarıqlarla təmin olunmasına dəstək göstərmək və onların iş dünyası ilə əlaqələrini genişləndirməkdir.

“Azersun Holdinq” MMC-nin nümayəndəsi Nurhan Məcidova isə qurum tərəfindən həyata keçirilən layihələr və tələbə-gənclərə yönəlmiş təşəbbüslər haqqında danışıb. O, ölkənin marketinq sahəsində nüfuzlu müsabiqələrindən biri olan “BrandBoom” layihəsinin ikinci mövsümünün başlanması ilə bağlı təqdimat edib, layihənin məqsədi, iştirak şərtləri və tələbələr üçün yaratdığı imkanlar barədə məlumat verib.

Görüş zamanı müsabiqənin BDU tələbələri üçün daha əlçatan olması istiqamətində müzakirələr aparılıb, gələcəkdə bu kimi imkanlarla bağlı infosessiyaların təşkili planlaşdırılıb.

# BDU-da “Azərbaycan dili - Açıq dərslər” layihəsinə başlanılıb

***Yanvarın 19-da Bakı Dövlət Universitetində “BDU könüllüləri” təşkilatının təşəbbüsü ilə “Azərbaycan dili - Açıq dərslər” layihəsinə başlanılıb.***

Layihə çərçivəsində açıq dərslərin silsilə şəkildə təşkili, iştirakçıların Azərbaycan dilinin leksik, qrammatik və üslubi xüsusiyyətləri barədə nəzəri biliklərinin dərinləşdirilməsi, real ünsiyyət və müxtəlif praktik tapşırıqlar vasitəsilə möhkəmləndirilməsi nəzərdə tutulur. Proqram dil bacarıqlarının inkişafına xidmət etməklə yanaşı, ana dilinə marağın artırılmasına, dil mədəniyyətinin formalaşdırılmasına və Azərbaycan dilinin cəmiyyətin müxtəlif sahələrində düzgün və səmərəli istifadəsinin təşviqinə yönəlib.

# BDU “QS Avropa 2026” reytinqində mövqeyini gücləndirib

*“QS Avropa” Avropanın aparıcı ali təhsil müəssisələrini qiymətləndirən beynəlxalq reytinq siyahısıdır. Reytinq tədqiqat keyfiyyəti və məhsuldarlığı, akademik reputasiya, işəgötürənlər arasında nüfuz, beynəlmiləlləşmə göstəriciləri, tədris mühiti və davamlılıq kimi əsas meyarlar üzrə hazırlanır.*

***Yanvarın 28-də BDU nüfuzlu beynəlxalq reytinq qurumlarından biri olan “Quacquarelli Symonds” (QS) tərəfindən açıqlanan “QS Avropa 2026” (QS Europe 2026) reytinqində irəliləyişə nail olub.***

Universitet ötən illə müqayisədə 58 pillə irəliləyərək, Avropa universitetləri arasında mövqeyini möhkəmləndirib və 278-ci pillədə qərarlaşıb. BDU-nun müvafiq reytinq siyahısında ümumi qiymətləndirmə göstəricisi əvvəlki illə müqayisədə 68% artıb. Belə ki, BDU ötən il reytinq siyahısına daxil olan 685 universitet arasında 336-cı mövqedə yer almışdısa, bu il reytinqə düşə bilən 958 universitet arasında 278-ci pilləyə yüksəlib.

“QS Avropa 2026” reytinq siyahısında BDU akademik nüfuz, məzunların məşğulluq göstəriciləri, beynəlxalq elmi tədqiqat şəbəkəsi və akademik heyətə nisbətdə elmi məqalə sayı indikatorları üzrə Azərbaycan universitetləri arasında ən yaxşı göstəricilərə malikdir. BDU reytinqə daxil edilmiş 958 universitet arasında tələbə–müəllim nisbəti göstəricisi üzrə 64-cü, məşğulluq göstəriciləri üzrə 82-ci, akademik nüfuz üzrə 157-ci və işəgötürən nüfuzu üzrə isə 190-cı mövqedədir. Eyni zamanda, QS tərəfindən açıqlanan “QS Qərbi Asiya 2026” (QS Western Asia 2026) alt kateqoriya reytinqində BDU 15-ci yerdən 13-cü yerə yüksəlib.

“QS Avropa” Avropanın aparıcı ali təhsil müəssisələrini qiymətləndirən beynəlxalq reytinq siyahısıdır. Reytinq tədqiqat keyfiyyəti və məhsuldarlığı, akademik reputasiya, işəgötürənlər arasında nüfuz, beynəlmiləlləşmə göstəriciləri, tədris mühiti və davamlılıq kimi əsas meyarlar üzrə hazırlanır. Bu reytinq siyahısı Avropa universitetlərinin qlobal miqyasda rəqabət qabiliyyətini, akademik və elmi potensialını obyektiv şəkildə müqayisə etməyə imkan yaradır və ali təhsil müəssisələri üçün mühüm göstərici hesab olunur.

Azərbaycan bu reytinq siyahısında ilk dəfə olaraq 15 ali təhsil müəssisəsi ilə təmsil olunur ki, bu da ötən illə müqayisədə reytinqdə yer alan ölkə ali təhsil müəssisələrinin sayında 67 faiz artım deməkdir. BDU “QS Avropa 2026” reytinqində yer alan bütün Azərbaycan ali təhsil müəssisələrini təbrik edir, onlara gələcək fəaliyyətlərində yeni uğurlar və davamlı nailiyyətlər arzulayır.

# BDU-nun çinli tələbəsi: “Azərbaycan dilini öyrənmək mənim üçün böyük şansdır” - MÜSAHİBƏ

***Müsahibim Çin Xalq Respublikasının Pekin Xarici Dillər Universitetinin tələbəsi Zhu Tianxudur. O, həm də Filologiya fakültəsində “Azərbaycan dili” ixtisası üzrə əlavə təhsil alır. Zhu Tianxu dilimizdə çox yaxşı danışması ilə yanaşı, Azərbaycan ədəbiyyatını da çox sevir. Azərbaycan dilini yaxşı səviyyədə mənimsəyərək, gələcəkdə Azərbaycan – Çin münasibətlərinin inkişafına töhfə vermək istəyir. Bəs müsahibimizin sonrakı planları nədir? Gəlin, özündən eşidək:***



Adım Zhu Tianxudur, amma siz mənə Hüseyn də deyə bilərsiniz. Beş aydır ki, BDU və Pekin Xarici Dillər Universiteti arasında imzalanmış anlaşma memorandumu çərçivəsində BDU-nun 2021-2030-cu illəri əhatə edən “Strateji İnkişaf Planı”nın beynəlxalq mobillik proqramları üzrə əlavə təhsil alıram. Amma bundan əvvəl Çində də “Azərbaycan dili” ixtisasını seçmişdim və Azərbaycan dilinə, mədəniyyətinə marağım var idi. Çünki Azərbaycanla Çin arasında bir çox məsələlərdə ortaq nöqtələr var. Bunun üçün dilinizi daha yüksək səviyyədə mənimsəmək, Azərbaycanı daha yaxından tanımaq istədim və Dövlət Proqramına müraciət etdim.

***-Qeyd etdiniz ki, biz sizə Hüseyn də deyə bilərik. Niyə məhz Hüseyn? Yəqin ki, bunun bir hekayəsi var.***

- Bəli, elədir. Biz bura gələndən sonra insanlar adımı tələffüz etməkdə çətinlik çəkirdilər. Elə həmin dövrdə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti İsa Həbibbəyli Azərbaycan dilini öyrənən çinli tələbələrlə görüş keçirirdi. Görüşdə İsa Həbibbəyli həm bizim Azərbaycan dilini öyrənməyimizi və bu məqsədlə ölkənizə gəlməyimizi çox xoş qarşıladı, həm də hər birimizə bir azərbaycanlı adı verdi. Mənə də dedi: “Bundan sonra sənin də adın Hüseyn olsun”.

***-Çox maraqlıdır. Təhsil almaq üçün məhz BDU-nu seçmisən. Burdakı tədris prosesin necə gedir?***

-Mənim inkişafıma çox müsbət təsir göstərib. Elə həm Cənubi Qafqazın, həm də ölkənin ən nüfuzlu Universiteti olduğu üçün BDU-da təhsil almaq şansı əldə etmək mənim üçün çox xoşdur. Burada həm dərsliklər, həm də müəllimlərim çox yaxşıdır. Müəllimlərimin hamısı bizə böyük səbrlə dərs keçirlər. Azərbaycan dilini öyrənən əcnəbi tələbə kimi Universitetinizdə dilinizi öyrənmək üçün zəngin resurslar var. Dil kitabları, audiovizual materiallar və digər vəsaitlər Azərbaycan dilini öyrənməyim üçün mənə çox kömək oldu.

***-Hüseyn, Azərbaycan dilini öyrənməyə bu qədər həvəslisən. Marağına səbəb nədir?***

-Azərbaycan dili çox gözəl və mənalı dildir. Artıq iki ildir ki, bu dili öyrənirəm. Azərbaycan dilini mənimsəməyimdə Çindəki müəllimim - Asiya fakültəsinin Azərbaycan dili kafedrasının müdiri Aqşin Əliyevin böyük rolu olub. Bununla belə, düşünürəm ki, dili öz ölkəsində öyrənmək xüsusilə dinləmə bacarıqlarının inkişafına ciddi təsir göstərir. Son illərdə Azərbaycan-Çin əlaqələrinin sürətlə inkişaf etməsi də bu seçimi etməyimə mühüm təsir göstərdi. İstəyirəm ki, Azərbaycan dilini indi yaxşı səviyyədə mənimsəyim və gələcəkdə Azərbaycan – Çin münasibətlərinin inkişafına töhfə verim.

***-Azərbaycan dilini öyrənməyiniz sizə yerli müəlliflərimizi oxumaq imkanı yaradır. Ən çox sevdiyiniz yazıçı və ya şair kimdir?***

-Düzünü desəm, bura gəlməzdən əvvəl Azərbaycan ədəbiyyatını az oxumuşdum. Amma bu semestr ərzində ədəbiyyatınızdan çoxlu nümunələrlə tanış olmuşam. Çünki bu semestr “Azərbaycan ədəbiyyatından seçmələr” və “Azərbaycan ədəbiyyatı tarixi” fənləri çərçivəsində Xətai, Füzuli, Nizami, Nəsimi kimi möhtəşəm şairlərin əsərlərini oxumuşuq. Həmin dərslərdə Azərbaycanın milli dəyərlərini daha yaxşı öyrəndim. Ədəbiyyatımız, milli dəyərlərimiz və mövzularımız arasında oxşarlıqlar var. Bizim ədəbi nümunələrimizdə də milli-mənəvi dəyərlər ön plandadır. Bu oxşarlıq məni çox sevindirir.

***-Hüseyn, Azərbaycan dilini öyrənərkən hansı çətinliklərlə qarşılaşdın? Çin dili ilə Azərbaycan dili arasındakı fərqlər nələrdir?***

-Çin və Azərbaycan dilləri tamamilə fərqli dillərdir. Azərbaycan dilini öyrənmək də asan deyil. İlk öyrəndiyim qaydalardan biri ahəng qanunu idi, bu da sizin dilinizin əsas qaydasıdır. Ən asanı yəqin ki, yazmaqdır, amma dinləmək çox çətindir. Çünki Azərbaycan dilində dialekt və şivələrdən istifadə edirsiniz və tələffüzdə ciddi fərqlər yaranır. Sizdə bir sözün müxtəlif bölgələrə görə adlanması və səslənməsi var. Azərbaycanda yaşadığım bu beş ay ərzində müxtəlif dialekt və şivələrlə tanış oldum. Bu isə mənim üçün ən maraqlı təcrübələrdən biri oldu.

***-BDU-da tələbə həyatı necə keçir?***

-Azərbaycana gəldiyimiz ilk gündən, yəni, ötən il sentyabrın 18-dən etibarən çox səmimi və mehriban qarşılandıq. Daha sonra buradakı azərbaycanlı tələbələrlə dostlaşdım. Hətta burada Çin dilini bilən və ya öyrənməyə çalışan tələbələrlə də tanış oldum. Birbirimizə qarşılıqlı şəkildə kömək edirik. Yəni, onlar mənə Azərbaycan dilini, mən isə Çin dilini öyrədirəm. Burada tələbə həyatı çox hərəkətlidir və Universitet bizə doğma münasibət göstərir. Buna görə də mən özümü artıq BDU ailəsinin üzvü kimi hiss edirəm.

***-Gələcək planların necədi? Azərbaycan dilindən gələcəkdə necə istifadə etməyi düşünürsən?***

-Gələcəkdə BDU-da fəaliyyət göstərən Konfutsi İnstitutunda Çin dili müəllimi kimi fəaliyyət göstərməyi çox istərdim. Karyeram baxımından Azərbaycan dilini öyrənmək mənim üçün böyük şansdır və bu dili peşəkar səviyyədə bilməyimin gələcək həyatımda mühüm rol oynayacağına inanıram.

*Hazırladı: Nuran Yaqubova*

# BDU-nun əcnəbi tələbəsi: “Çində Azərbaycan dili müəllimi kimi fəaliyyət göstərmək istəyirəm” – MÜSAHİBƏ

***Çin Xalq Respublikasının Pekin Xarici Dillər Universitetinin “Azərbaycan dili” ixtisası üzrə təhsil alan tələbəsi Liu Muzi Filologiya fakültəsində “Azərbaycan dili” ixtisası üzrə mübadilə proqramında iştirak edir.***

O, BDU ilə Pekin Xarici Dillər Universiteti arasında imzalanmış anlaşma memorandumu çərçivəsində BDU-nun 2021–2030-cu illəri əhatə edən “Strateji İnkişaf Planı”nın beynəlxalq mobillik proqramları üzrə Azərbaycanda təhsil almaq hüququ əldə edib. Məqsədi Azərbaycan dili və ədəbiyyatını ən yaxşı şəkildə öyrənərək öz ölkəsində tanıtmaq, beynəlxalq əlaqələrimizə töhfə verməkdir.



***-Azərbaycan dilini seçməyiniz təsadüfdürmü?***

-Xeyr, bu seçim təsadüfi deyil. Son illərdə Azərbaycan-Çin münasibətləri sürətlə inkişaf edir. Mən düşünürəm ki, gələcəkdə bu əlaqələrin daha da genişlənməsi üçün hər iki ölkənin dilini və mədəniyyətini bilən kadrlara ehtiyac artacaq. Dil mədəniyyəti, düşüncə tərzini anlamağın yoludur. Mən də gələcəkdə ölkələrimiz arasında əlaqələrin inkişafında rol oynayan mütəxəssislərdən biri olmaq istəyirəm.

***-Azərbaycan ədəbiyyatı ilə tanışlığınız necə başladı?***

-Azərbaycan ədəbiyyatı ilə hələ Çində oxuyarkən tanış olmuşdum. Universitetdə sizin ədəbiyyatdan nümunələr oxuyurduq. Azərbaycana gəldikdən sonra isə bu maraq daha da artdı. Burada yeni əsərlərlə, yeni müəlliflərlə tanış oldum. Xüsusilə Nizami Gəncəvinin “Yeddi gözəl” əsəri mənə çox təsir etdi. Azərbaycan xalq nağıllarını da böyük maraqla oxudum. “Məlikməmmədin nağılı”nı isə çox sevdim.

***-Azərbaycan dili ilə Çin dili arasında hansı fərqləri görürsünüz?***

-Bu dillər struktur baxımından bir-birindən çox fərqlənir. Azərbaycan dilində şəkilçilərin çox olması dili öyrənmə prosesini bir qədər çətinləşdirir. Amma bu, eyni zamanda dili maraqlı edir. Dil vasitəsilə mədəniyyət də öyrənilir. Məncə, fərqlər nə qədər çox olsa, öyrənmə prosesi bir o qədər maraqlı olur. Bu fərqlər mənə həm dili, həm də Azərbaycan xalqının düşüncə tərzini daha yaxından tanımaq imkanı yaradır.

***-Azərbaycan haqqında ilk məlumatı haradan almısınız?***

-Əvvəllər Azərbaycanı əsasən İpək yolu üzərində yerləşən ölkə kimi tanıyırdım. Sonra universitetdə bu ixtisası seçdim və Azərbaycan dili, ədəbiyyatı haqqında daha geniş məlumat əldə etdim. Azərbaycana gəldikdən sonra isə bu biliklər real həyatla tamamlandı. Burada mədəniyyətinizi, tarixinizi öyrənmək və insanlarınızla birbaşa ünsiyyətdə olmaq təhsilim və ölkənizi öyrənməyim baxımından çox faydalı oldu. Deyə bilərəm ki, böyük ipək yolu ilə başlayan əlaqələrimiz yeni təcrübələrlə inkişaf edir.

***-Azərbaycan mediasını izləyirsinizmi?***

-Bəli, izləyirəm. Dərslərimizdə bu mövzuda tapşırıqlar verilir. Vaxt tapdıqca Azərbaycan dilində xəbərlər oxuyuram. Bu, dil bacarığımı inkişaf etdirməklə yanaşı, ölkədə baş verən hadisələri daha yaxşı anlamağıma kömək edir. Bir müddət əvvəl dostumla birlikdə kinoteatrda Azərbaycan dilində film də izlədik. Bu cür təcrübələr dili canlı şəkildə öyrənmək üçün çox faydalıdır.

***-BDU və universitet həyatınız yaddaşınızda necə qalacaq?***

-Universitet həyatım çox maraqlıdır. Burada yeni dostlar qazandım. İnsanlar mənə çox mehriban yanaşırlar. Birlikdə vaxt keçiririk, ölkələrimizin mədəniyyəti, tarixi və fərqləri haqqında söhbətlər edirik. Azərbaycan mətbəxi ilə də yaxından tanış oldum. Bu mühit mənə özümü rahat hiss etdirdi və Azərbaycanı daha çox sevməyimə səbəb oldu.

***-Gələcək planlarınız nələrdir?***

-Çinə qayıtdıqdan sonra Azərbaycan dili müəllimi kimi fəaliyyət göstərmək istəyirəm. Məqsədim Azərbaycan dilini və mədəniyyətini Çində daha geniş auditoriyaya tanıtmaqdır.

*Hazırladı: Nuran Yaqubova*


**Buraxılışa məsul:** Afaq Sadıqova

**Redaksiya heyəti:** Əliş Ağamirzəyev, Vüqar Əliyev, Cahangir Məmmədli, Qulu Məhərrəmli, Xatirə Hüseynova, Samir Mirzəyev, Günel Orucəliyeva

**Dizayn - tərtibat:** Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin Nəşr Evində çap olunmuşdur.

**Çapa imzalanıb:** 30.01.2026

**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.

**Əlaqə nömrəsi:** (+994 12) 538 42 08